Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 63 (8086) ÇƏRŞƏNBƏ AXŞAMI, 19 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İlham Əliyevin 33-cü əfvi

### Son 23 ildə imzalanan 65 əfv və 11 amnistiya aktı ilə 120 mindən artıq insana azadlıq bəxş edilib

**Prezident İlham Əliyevin martın 16-da imzaladığı əfv sərəncamı 431 nəfər məhkuma şamil olundu. Onlardan 399 nəfər azadlıqdan məhrumetmə cəzasından, qalanlar şərti və cərimə cəzasından, islah və ictimai işlərdən, cəzasının çəkilməmiş hissəsindən azad edildi. Bundan başqa, ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş üç nəfərdən birinin cəzası 25, iki nəfərinki isə 20 il müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəzləndi.**

#### Ulu öndərin əsasını qoyduğu humanizm siyasəti

Novruz bayramı ərəfəsində imzalanan bu sərəncam qohum-əqrəbası həbsdə olan bir çox ailələrə sonsuz sevinc bəxş etdi. Müxtəlif səbəblərdən azadlıqdan məhrum edilərək həbsə alınan və artıq cəzalarının müəyyən bir hissəsini çəkən, eyni zamanda islah olunma istiqamətində müsbət nəticələr əldə edən məhkumlar azad cəmiyyətə qovuşdular və şübhə yoxdur ki, onlar ictimai həyatda öz yerlərini tutacaqlar. Əfv sərəncamının bayram ərəfəsində imzalanması isə cəmiyyətdə gözəl ovqat yaradır. Çünki həm əfvə düşən insanlar, həm də onların ailə üzvləri və yaxın qohumları bayramı daha yüksək əhvali-ruhiyyədə qeyd edəcəklər.

Əfv olunmaları həm də həmin insanlara bundan sonra həyatda öz yollarını düzgün seçməklə bağlı verilmiş çox gözəl imkan və şansdır. Bu şansın verilməsi isə Azərbaycan dövlətinin humanizm siyasətinin mahiyyətindən və məzmunundan irəli gəlir. Bu siyasətin əsasını 1993-cü ildə ulu öndər Heydər Əliyev müəyyən edib. Mərhəmət və insanpərvərlik kimi ən ali insani keyfiyyətləri ilə seçilən ulu öndər hər zaman humanizm ideyalarına böyük önəm verib və real həyatda bunu təcəssüm etdirən addımlar atıb. Heydər Əliyev humanizm prinsiplərinə uyğun olaraq əfvetmə və bağışlama institutunu yaradıb, onun təşəbbüsləri ilə bu sahədə bir sıra tədbirlər həyata keçirilib. Ölkə Prezidentinin yanında şəffaf və demokratik əsaslarla fəaliyyət göstərən Əfv Komissiyasında ictimaiyyətin müxtəlif təbəqələrinin təmsilçiliyinə lazımi şərait yaradılıb.

Təbii ki, cinayət cəzasız qalmamalıdır. Hər hansı cinayəti törədən cəzasını almalıdır. Cəza hüququnun reallaşdırılmasında isə ədalətə söykənmək Heydər Əliyevin humanizm siyasətinin əsas qayələrindən biridir. Bu siyasətin nəticəsi olaraq ulu öndər tərəfindən 32 əfv fərmanı imzalanıb. Bununla 3 mindən çox şəxs bağışlanaraq cəzalarından azad edilmişlər. Heydər Əliyev böyük humanistlik nümayiş etdirərək 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismini əfv edib. Həmçinin 1996-2003-cü illərdə 7 dəfə amnistiya elan olunub. Amnistiya aktları törətdikləri cinayət əməlindən səmimi peşmançılıq hissi keçirən 78 mindən çox insana şamil olunub, 21 min 325 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib.

Heydər Əliyevin humanizm siyasətinin daha bir göstəricisi Azərbaycanda 1993-cü ildən ölüm hökmünün icrasının dayandırılmasıdır. Faktiki olaraq bu cəzanın icrasına moratorium qoyulub. Sonrakı illərdə tamamilə ləğv olunması istiqamətində bir sıra addımlar atılıb. 1998-ci ildə isə Heydər Əliyevin humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü tamamilə ləğv edilib.

#### 65 əfv, 11 amnistiya

Ümummilli liderin Azərbaycan dövlətçiliyinin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən konsepsiyalarının uğurla həyata keçirilməsinin nəticəsi olaraq respublikamız bütün sahələrdə böyük tərəqqiyə nail olub, dünya birliyində öz yerini möhkəmləndirib. Ulu öndərin humanizm siyasəti ənənələrinə sadiqlik Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri kimi daim diqqəti cəlb edir. Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətini layiqincə davam etdirən Prezidenti İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edib, hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsinə yüksək önəm verib. Törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əfvlə bağlı müraciətlərini nəzərə alan dövlət başçısı bayram və əlamətdar günlərdə imazaladığı əfv sərəncamları ilə onların bir qismini cəzalarının çəkilməmiş hissəsindən tam azad edib.

Xatırladaq ki, Prezident İlham Əliyev sonuncu əfv sərəncamını ötən ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə imzalamışdı. Sərəncama əsasən Heydər Əliyev siyasətinin mərhəmətlik və humanizm ənənələrinə sadiq qalaraq və cəzadan azad olunacaq şəxslərin cəmiyyətə qovuşaraq müstəqil dövlətimizin inkişafı yolunda fəaliyyət göstərəcəklərinə inanaraq 634 nəfər əfv edilmiş və bu, müstəqillik dövrünün ən böyük əfv qərarı kimi tarixə düşmüşdü.

Prezidentin bir neçə gün əvvəl imzaladığı növbəti əfv sərəncamı isə ümumilikdə 431 nəfərə şamil olundu. Artıq sərəncamın icrası vaxtında və yüksək səviyyədə təmin edilərək başa çatdırılıb. Əfv olunmuş şəxslər Penitensiar Xidmətin tabeliyindəki cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıblar.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin verdiyi sayca 33-cü əfv qərarıdır. Sonuncu sərəncamı da nəzərə alsaq, Azərbaycan Prezidenti ötən 15 ildə 7961 nəfəri əfv edib. Bu dövrdə Azərbaycanda həm də 4 dəfə amnistiya elan edilib. Milli Məclis 2007-ci il mayın 8-də “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında”, 2009-cu il martın 17-də “Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında”, 2013-cü il mayın 7-də “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında” və 2016-cı ilin mayında 28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında qərarlar qəbul edib. Bütün bu amnistiya qərarlarının təşəbbüskarı isə Heydər Əliyev Fondunun prezidenti, o zaman Milli Məclisin deputatı olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva olub.

Ümumilikdə isə 1996-cı ildən sonra ölkədə 65 əfv sərəncamı imzalanıb, 11 dəfə amnistiya elan edilib. Bu mərhəmət nümunələri ilə ümumilikdə 120 mindən artıq insana azadlıq bəxş edilib. Bütün bunlar Azərbaycan hakimiyyətinin humanist siyasət yürütdüyünü və humanizm dəyərlərinə bağlı olduğunu göstərir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

Bağışlamaq qəlbin böyüklüyüdür

## Mərhəmətin daha bir nümunəsi






Novruz əhvali-ruhiyyəli insanların bayram ovqatına bir sevinc də əlavə olundu. Buna səbəb Azərbaycan Prezidentinin “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” sərəncamının icrası idi.

Bu, 1995-ci ildən başlayaraq məhkum edilmiş şəxslərə tətbiq edilən sayca 65-ci əfv sərəncamıdır. Xatırladaq ki, əvvəlki 32 sərəncam ulu öndər Heydər Əliyev, 33 sərəncam isə İlham Əliyev tərəfindən imzalanıb. Həmin əfv sərəncamları 7961 nəfərə şamil edilib, onlardan 4645 nəfəri penitensiar müəssisələrdə cəza çəkən şəxslər olub. 16 mart 2019-cu il tarixdə imzalanmış əfv sərəncamı isə 431 nəfərə şamil edilib. Onlardan 399 nəfəri azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad edilib. Üç nəfər ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxsin cəzası müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilib.

Ötən bazar günü cəzaçəkmə müəssisələrinin qarşısına səhərdən xeyli adam toplaşmışdı. Onlar doğmalarını qarşılamağa, sevinclərini elə cəzaçəkmə müəssisələrinin çıxışında bölüşməyə gəlmişdilər.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qaradağ rayonunda yerləşən 14 saylı cəzaçəkmə müəssisəsindən həmin gün 12 nəfər - Ramin Həmidov, Müşfiq Əhmədov, Arzuman Bayramov, Baba Babayev, Mirabdulla Əliyev, Əmrah Hüseynov, Səxavət Həsənov, Nurlan Niftəliyev, Rövşən Məmmədov, Talıb Ağamalıyev, Fariz Kərimov və Həzrətəli Kazımov azadlığa buraxıldılar.

Müşfiq Əhmədovu qarşılamağa anası Almaz xanım və qardaşı Vahab gəlmişdi. Sevincin həyəcanından danışa bilməyən ananın fikirlərini Vahab bildirdi:

- Qardaşım Müşfiq ziyalı və xeyriyyəçi olub. Diş həkimidir. Bir münaqişə ucbatından azadlıqdan məhrum edilmişdi. Anam Azərbaycan Prezidentinə, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ünvanına məktub yazmışdı. Müraciətdə özünün yaşlı olmasını, Müşfiqin övladlarının azyaşlı, həyat yoldaşının evdar qadın olmasını nəzərə alaraq kömək göstərilməsini xahiş etmişdi. Hər dəfə söhbət düşəndə anam deyərdi: “Mən Prezidentə inanıram, mütləq kömək edəcək. O, elə bir böyük şəxsiyyətin oğludur ki, xalqın qayğısına qalmağı, insanlara kömək göstərməyi özünə borc bilir. Belə də oldu.

Düzü, qardaşımın əfv xəbərini eşidəndə evdəkilərin sevincinin həddi-hüdudu yox idi. Müşfiqin 7 yaşlı oğlu Cavid, 5 yaşlı oğlu Fərid səhərədək yatmadılar.

*Ardı 3-cü səh.*

## Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycan islahatların növbəti mərhələsinə qədəm qoyur

### Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz bayram günlərində hamınıza bahar əhvali-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.

Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır. Təbiətlə insanın vəhdətinə dair təsəvvürləri yaşadan rəngarəng Novruz mərasimlərində xalqımızın dolğun həyat fəlsəfəsi və zəngin düşüncə dünyası parlaq təcəssümünü tapmışdır.

Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir.

Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur. Qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir. Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir.

Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır. Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir. Qoy bu bayram hər evə xoş ovqat gətirsin və hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

***Süheyl Məhəmməd əl-Məzruin,***
***Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri:***

## “Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda geniş investisiya imkanları yaradılıb”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Süheyl Məhəmməd əl-Məzruini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərindən məmnun olduğunu bildirən Süheyl Məhəmməd əl-Məzrui Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlət başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək əməkdaşlığın yeni sahələri, o cümlədən turizm sahəsini əhatə etməsindən məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artdığını bildirən Prezident İlham Əliyev bunu dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirdi və qonaqların xalqımızın qonaqpərvərliyinin şahidi olduğunu vurğuladı.

Azərbaycanla münasibətlərin ölkəsinin xarici siyasətinin gündəliyində duran ən önəmli istiqamətlərdən biri olduğunu deyən Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda geniş investisiya imkanları yaradılmasının ölkəsində yüksək qiymətləndirildiyini bildirdi.

Söhbət zamanı “OPEC plus” formatında Bakıda keçirilən tədbirlərin əhəmiyyətinə toxunuldu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında enerji, neft-qaz, neft-kimya, bərpa olunan enerji, müxtəlif iqtisadi layihələr sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarına görə minnətdarlığını bildirən dövlət başçısı onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, vitse-prezidenti, Baş naziri və Dubay Əmirinə və Əbu-Dabinin vəliəhdinə çatdırmağı xahiş etdi.

## Dünyanın əsas neft ixracatçıları Bakıda toplaşdılar

Martın 18-də Bakıda OPEC və qeyri-OPEC ölkələrinin Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) 13-cü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, toplantıda 14 neft istehsalçısı ölkə və OPEC Katibliyi yüksək səviyyədə təmsil olunub.

Toplantıda OPEC-in baş katibi Məhəmməd Barkindo, OPEC prezidenti, Venesuelanın neft naziri və Dövlət Neft Şirkətinin prezidenti Manuel Kevedo Fernandes, JMMC-nin sədri, Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih iştirak edib. Tədbirdə, həmçinin OPEC üzvləri Əlcəzair, Birləşmiş Ərəb Əmirliklərinin, Küveyt, İraq, Liviya, Nigeriya, Konqo, qeyri-OPEC ölkələrindən isə Rusiya, Qazaxıstan, Bəhreyn və Bruney nazir və yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil edilib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov qeyd edib ki, bu tədbir Prezident İlham Əliyevin OPEC və qeyri-OPEC ölkələrinin tədbirlərinin Bakıda keçirilməsi təklifi ilə baş tutur: “Bu təklifin qəbulu neft bazarının tənzimlənməsi məqsədilə “OPEC plus” formatının yaradılması təşəbbüsü ilə ilk dəfə çıxış edən Azərbaycan Prezidentinin enerji siyasətinə verilən yüksək qiymətin göstəricisidir. Belə ki, hələ 2016-cı ilin yanvarında Azərbaycan Prezidenti qiymət sabitliyinə nail olmaq üçün Davos Forumunda belə bir əməkdaşlıq təşəbbüsünü irəli sürərək bildirib ki, OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, nəticə əldə edilə bilər”.

*Ardı 2-ci səh.*

# Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırılması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təminatının yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

# Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum Evinin və Uşaq Xəstəxanasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Salyan şəhərində Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum Evinin və Uşaq Xəstəxanasının əsaslı təmiri və zəruri tibbi avadanlıqlarla təchiz edilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

# Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.12-ci yarımbəndində göstərilən vəsaitin 6 807 400 (altı milyon səkkiz yüz yeddi min dörd yüz) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2019-cu il*

# KİVDF-nin 10 illik yubileyi qeyd edilib





Martın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaranmasının 10 illik yubileyi qeyd edilib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində yubiley və Novruz bayramı münasibətilə elan olunmuş ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Tədbirdə əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib.

Sonra fondun 10 illik fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Fondun icraçı direktoru Vüqar Səfərli KİVDF-nin müxtəlif dövlət qurumları ilə birgə həyata keçirdiyi işlərdən danışıb. Bildirib ki, ötən 10 il ərzində fond tərəfindən xeyli iş görülüb. Jurnalistlərin peşəkarlığının artırılması, sosial-mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işləri xüsusi qeyd etmək olar. Fond ildə üç dəfə - Novruz bayramı, milli mətbuatımızın yaranması günü, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə müsabiqələr keçirir. Budəfəki müsabiqədə 54 KİV-dən 145 jurnalist iştirak edib. Onlardan 114-ü mükafatlara layiq görülüb.

İcraçı direktor Azərbaycan mətbuatına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə KİV nümayəndələri adından minnətdarlığını bildirib, eyni zamanda, dövlət başçısını və birinci xanım Mehriban Əliyevanı qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə çıxış edərək KİVDF-nin milli mətbuatımızın həyatında əhəmiyyətli rol oynadığını bildirib. Əli Həsənov qeyd edib ki, fond ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş müstəqil media siyasətinin həyata keçirilməsində önəmli xidmətlər göstərib. Bu fondun yaradılması təşəbbüsü Prezident İlham Əliyev tərəfindən irəli sürülüb. On il əvvəl dövlət başçısı fondun yaradılması ilə bağlı sərəncam imzaladı. Ondan bir il əvvəl isə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası qəbul olundu. Həm konsepsiyanın qəbul olunması, eləcə də fondun təsis edilməsi Azərbaycanda dövlətin mediaya qayğısını və dəstəyini sistemli halda həyata keçirən vahid mexanizmin yaradılmasını ehtiva edirdi.

Əli Həsənov bildirib ki, on ildir Azərbaycan dövlətinin KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasına, jurnalistlərin sosial problemlərinin həll edilməsinə göstərdiyi dəstək şəffaf şəkildə həyata keçirilir. Ötən on ildə kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması ilə bağlı nə iş görülübsə kollegial şəkildə, KİVDF-nin Müşahidə Şurasının bilavasitə nəzarəti ilə həyata keçirilib. İstər mənzillərin paylanması, istər fərdi yazı müsabiqələrinin keçirilməsi və qaliblərin elan olunması, istərsə də kütləvi informasiya vasitələrinə tirajına və onların potensialına uyğun illik yardımların göstərilməsi tam şəffaf və ədalətli sistem üzrə həyata keçirilib.

"Mən Azərbaycan mediasına göstərdiyi sistemli və şəffaf dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Prezident İlham Əliyevin bu siyasətinin həyata keçirilməsində iştirak edən hər kəsə, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına təşəkkür edirəm", - deyə Prezidentin köməkçisi qeyd edib.

Sonra fərdi jurnalist yazılarının qalibləri mükafatlandırılıb. Qaliblər arasında AZƏRTAC-ın müxbiri Nəriman Həsənov da var.

Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxış edərək jurnalist peşəsinin şərəfli peşə olduğunu bildirib. O, ulu öndər Heydər Əliyevin hələ keçmiş Sovet İttifaqı dövründə Azərbaycanın və onun mediasının inkişafı üçün gördüyü işlərdən danışıb. Bildirib ki, bu gün Azərbaycanın qazandığı uğurları gələcək nəsillərə çatdırmaq vəzifəsi mətbuatın üzərinə düşür. F.Heydərov Azərbaycan mediasının bu şərəfli missiyanı layiqincə yerinə yetirəcəyinə əmin olduğunu bildirib.

Tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov, Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və digərləri media nümayəndələri ilə əməkdaşlığa görə Fəxri diploma layiq görülüblər.

Nazir Əbülfəs Qarayev bu gün ölkəmizdə medianın uğurla inkişaf etdiyini bildirib. O qeyd edib ki, bu gün Azərbaycan mediası ölkəmizin əldə etdiyi uğurları beynəlxalq aləmə çatdırmaq kimi şərəfli vəzifəni layiqincə yerinə yetirir.

Tədbir bədii hissə ilə davam edib.

# Dünyanın əsas neft ixracatçıları Bakıda toplaşdılar



*Əvvəli 1-ci səh.*

"Neft bazarında balansın qorunması və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan "OPEC plus" əməkdaşlığı çərçivəsində fəal rolunu bu gün də davam etdirir. Eləcə də bu formatda keçirilən tədbirlərə evsahibliyi edir. Azərbaycan neft bazarının tənzimlənmə prosesinə töhfə verməkdə davam edəcək", - deyə P.Şahbazov bildirib.

Birgə Monitorinq Komitəsinin sədri Xalid Əbdüləziz Əl Falih deyib ki, qlobal neft tədarükünün səviyyəsini normallaşdırmaq əsas məqsədlərdəndir. Bildirib ki, ötən il qlobal neft bazarında balansın formalaşdırılması üçün mühüm addımlar atılıb. Bu gün neftin qiymətinin məqbul səviyyədə olması OPEC və "OPEC plus" formatında əməkdaşlığın nəticəsidir.

"Bugünkü iclasın neftin vətənində, Bakıda keçirilməsi çox əlamətdardır. Hazırda Azərbaycan "OPEC plus" formatında əməkdaşlığın fəal iştirakçısıdır", - deyə nazir vurğulayıb.

OPEC prezidenti Manuel Kevedo Fernandes son dövrlərdə neft bazarının balanslaşdığını bildirib.

OPEC-in baş katibi Məhəmməd Barkindo isə neft bazarındakı vəziyyətin müzakirəsi baxımından Bakıdakı iclasın əhəmiyyətini qeyd edib.

Toplantıda OPEC-in bazarın inkişaf tempinin təhlili əsasında hazırlanmış təqdimatı, Müştərək Texniki Komissiyanın (JTC) fevral ayı üzrə hasilat göstəricilərindən bəhs edən hesabatı və qlobal neft bazarında son inkişaflar müzakirə edilib. Həmçinin JTC-nin bazarın balanslaşdırılması üzrə tövsiyələri və neft istehsalının azaldılmasına dair öhdəliklərə əməletmə səviyyəsi nəzərdən keçirilib.

İclasın yekununa dair mətbuat konfransında Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih bildirib ki, OPEC-ə üzv və kartelə daxil olmayan bəzi ölkələrlə əldə olunan neft hasilatının azaldılmasına dair sazişə fevralda 90 faiz əməl edilib. Nazir qeyd edib ki, JMMC neft bazarında baş verən proseslərdən razıdır. "Əməkdaşlıq Bəyannaməsi"ndə iştirak edən ölkələrin sazişə əməletmə səviyyəsi fevral ayında 90 faiz olub. Komitə üzv ölkələrin fevral ayı ərzində kollektiv fəaliyyətindən məmnundur. Bildirib ki, yanvarda isə sazişə əməletmə səviyyəsi 83 faiz olub.

Energetika naziri Pərviz Şahbazov deyib ki, "OPEC plus" formatı yaradılandan indiyədək Azərbaycan öz öhdəliyini müvəffəqiyyətlə və tam yerinə yetirib. Azərbaycan "OPEC plus" çərçivəsində öhdəliklərinin yerinə yetirilməsi göstəricilərini yaxşılaşdıracaq.

Mətbuat konfransında qeyd olunub ki, Müştərək Texniki Komissiya və Birgə Monitorinq Komitəsinin növbəti iclasları bu ilin mayında Ciddədə keçiriləcək. Dörd ölkə - İraq, Qazaxıstan, Nigeriya və Birləşmiş Ərəb Əmirlikləri Birgə Monitorinq Komitəsinə yeni üzv seçilib. Qeyd edək ki, Nazirlərin Birgə Monitorinq Komitəsinin iclasından bir gün əvvəl - martın 17-də Bakıda Müştərək Texniki Komissiyanın 27-ci iclası da keçirilib.

Xatırladaq ki, Azərbaycanda fevral ayı üzrə gündəlik neft hasilatı 806 min barel olub. Bunun 722 min barelini xam neft, 84 min barelini kondensat təşkil edib. Gündəlik 572,9 min barel xam neft, 84 min barel kondensat, 18 min barel isə neft məhsulları ixrac olunub. Energetika Nazirliyi fevralda gündəlik neft hasilatı ilə bağlı məlumatları OPEC-in Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib.

Ötən il gündəlik neft hasilatı 792,6 min barel olub.

2018-ci il dekabrın 7-də Vyanada OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirlərinin V görüşündə neft hasilatının gündəlik 1,2 milyon barel azaldılması ilə bağlı razılıq əldə olunub. Yeni qərara əsasən, cari ilin yanvarından etibarən Azərbaycan sutkalıq hasilatın təxminən 20 min barel azaldılması ilə bağlı öhdəlik götürüb.

# Azərbaycan ilə Almaniya arasında əməkdaşlığa dair müzakirələr aparılıb

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyaya səfəri çərçivəsində bu ölkənin Xarici İşlər Nazirliyinin Şərqi Avropa, Qafqaz və Orta Asiya üzrə ofisinin rəhbəri səfir Maykl Siebert ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Hikmət Hacıyev özünün "Tvitter" səhifəsində bildirib.

Görüşdə ikitərəfli əlaqələr, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində şöbə müdirinin Almaniya Prezidenti və Kansleri Aparatında, aparıcı elmi-tədqiqat mərkəzlərində görüşləri, həmçinin Bundestaqda Cənubi Qafqaz mövzusunda çıxışı nəzərdə tutulub.



# Un və çörəklə bağlı tətbiq olunan vergi güzəştlərinin müddəti uzadılır

Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirildi. Ölkəmizdə son illərdə aparılan uğurlu islahatlardan danışan komitə sədri Ziyad Səmədzadə bildirdi ki, gündəliyə daxil olan məsələlər ölkə iqtisadiyyatının inkişafına, islahatların dərinləşməsinə xidmət edir. Gündəliyə daxil olan 22 məsələdən 11-i müzakirəyə çıxarıldı.

Bildirildi ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlı layihədə daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması prosesinin təkmilləşdirilməsi, çıxarışların kağız formada təqdim olunması prosedurunun tamamilə aradan qaldırılması, onların yalnız elektron üsulla təqdim olunması ilə bağlı müddəalar əks olunub. Qanun layihəsi əhaliyə xidmətin asanlaşdırılmasını təmin edəcək.

"Dövlət rüsumu haqqında" qanunda təklif edilən dəyişikliyə görə könüllü dövlət daktiloskopik qeydiyyatının aparılmasına görə 20 manat, könüllü dövlət genom qeydiyyatının aparılmasına görə 250 manat dövlət rüsumu müəyyən edilir.

Daha sonra "Banklar haqqında" qanunda dəyişikliklə bağlı qanun layihəsini müzakirəyə çıxaran Ziyad Səmədzadə Azərbaycanda bankların təklif etdiyi kredit faizləri ilə bağlı ciddi problem olduğunu diqqətə çəkdi. Bunun sahibkarlığın inkişafına mane yaratdığını deyən komitə sədrinin sözlərinə görə, kredit faizləri təyin olunanda orta mənfəət dərəcəsi nəzərə alınmır: "Sahibkarlar həmişə bankların kredit faizlərindən şikayətlənirlər. Təbii ki, banklar da öz mənfəətini düşünməlidir, amma bəziləri hələ də anlamır ki, Azərbaycanda bank kredit faizləri orta mənfəət dərəcəsindən hətta 4 dəfə çoxdur. Bu sahədə tənzimləmə mexanizminə ciddi ehtiyac var. Prezident İlham Əliyevin təklifi ilə hazırlanan bu qanun layihəsi ölkəmizdə normal kredit faizləri ilə bankların fəaliyyətini təmin etməyə kömək edəcək. Həmçinin, sahibkarlıq daha da inkişaf edəcək, əhalinin kredit imkanlarına rahat çıxışı təmin olunacaq".

Qanun layihəsi barədə danışan Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə heyətinin üzvü Asim Zülfiqarov dedi ki, sənəd müştərilərin maraqlarının qorunması məqsədilə kredit müqavilələri üzrə faiz dərəcələrinin, komisyon haqların və bank xidmətləri üçün digər ödənişlərin optimallaşdırılması üçün onların yuxarı həddinin tənzimlənməsini nəzərdə tutur. Dəyişiklik banklar arasında ədalətli rəqabət mühiti yaradacaq, fiziki şəxslərin sağlam kreditləşməsinə uyğun olaraq bankların fəaliyyətinin təmin olunmasına imkan verəcək.

Çıxış edən deputatlardan Əli Məsimli, Tahir Mirkişili, Aydın Hüseynov qanun layihələrini müsbət qiymətləndirdi və öz təkliflərini səsləndirdilər.

Deputat Tahir Mirkişili hesab etdi ki, ölkədə verilən kreditlərin 40 faizi isltehlak kreditidir. Sənaye və kənd təsərrüfatı sahəsində kreditlərin verilməsi prosesi də asanlaşdırılmalıdır.

İclasda "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi də müzakirəyə çıxarıldı. Qeyd edildi ki, dəyişikliyə görə, buğda emalı müəssisələrinin səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə kəpək istehsalı və satışının 2019-cu ilin martın 1-dən 2 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi və hazırda buğdanın idxalı və satışına, buğda ununun, çörəyin istehsalı və satışına tətbiq olunan güzəştin əlavə olaraq daha bir il də uzadılması nəzərdə tutulub.

Mülki, vergi, mənzil, gömrük məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələrinə edilən yeniliklər müsbət qiymətləndirildi və müzakirə olunan qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***




Bağışlamaq qəlbin böyüklüyüdür

# Mərhəmətin daha bir nümunəsi









*Əvvəli 1-ci səh.*

Bizə qoşulub Bakıya gəlmək istəyirdilər. Anamı, qardaşımın ailəsini sevindirdiyinə görə bu sevinci bizə bəxş edən ölkə rəhbəri İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk. Biz bir daha əmin olduq ki, cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidentidir.

Şamaxı rayonundan olan Həmid Bağırov isə dedi ki, oğlum avtomobillə qəza törətdiyinə görə 5 il müddətinə azadlıqdan məhrum edilmişdi, 3 il idi cəzasını çəkirdi. Ölkə Prezidentinin sərəncamına əsasən qalan 2 ilini cəzadan azad etdilər. Buna görə dövlət başçısına dərin təşəkkürümü bildirirəm.

Azadlığın sevincindən qəhər boğa-boğa danışan Nurlan Niftəliyev dedi ki, bu günə min dəfə şükür edirəm. Bundan sonra ailəmin yanında olacam. İşimlə, halal əməyimlə məşğul olacam. Azadlıq və halallıq əsl insan həyatı deməkdir. Çalışacam ki, bundan sonra heç vaxtı səhvə yol verməyim. Bu gözəl ölkəmin inkişafında , tərəqqisində əlimdən gələni edəcəm. Mənə bu imkanı yaradan, məni ailəmə qovuşduran dövlət başçısına dərin minnətdarlığımı bildirirəm.



Əfv sərəncamı 14 xarici vətəndaşa, o cümlədən 3 Gürcüstan, 2 Rusiya, 2 Nigeriya, 1 Türkiyə, 1 İran, 1 Özbəkistan, 1 Çin, 1 Kamerun, 1 Hindistan, 1 Belarus vətəndaşına şamil olunub. 14 saylı cəzaçəkmə müəssisəsindən vaxtından əvvəl azadlığa buraxılanlar arasında da Gürcüstan vətəndaşı Arzuman Bayramov da var idi. O, ürək sözlərini belə ifadə etdi: "Həmişə görmüşdüm ki, Prezident İlham Əliyev Gürcüstanda yaşayan azərbaycanlıların sosial problemlərinə, hüquqlarının müdafiəsinə, hətta uşaqlarımızın təhsil və ailəmizin məişət qayğılarına belə diqqətlə yanaşır. Odur ki, məndə böyük inam var idi ki, Prezident İlham Əliyev xəstəliyimi, ailəmizin maddi durumunu nəzərə alıb mənə kömək göstərəcək. Bir neçə ay bundan öncə böyük ümidlə ona məktub yazıb, kömək istədim. Allaha min dəfə şükürlər edirəm ki, səsimə səs verdi, ailəmə kömək göstərdi. İndi mən azadam. Ailəmiz adından Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm.

Azadlığa buraxılanlar cəzaçəkmə müəssisəsinin qapısından çıxıb doğmaları ilə görüşüb-qucaqlaşdıqca, həyəcanlı çöhrələrdə sevinc qarışıq təbəssüm hiss olunurdu. Bu insanların hamısı Novruz günlərində onları sevindirən, onlara ikiqat bayram ovqatı yaşadan dövlət başçısına, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dönə-dönə minnətdarlıqlarını bildirirdilər.

Azadlığın böyük nemət olduğu Novruz bayramının şirinliyində daha təntənəli, daha möhtəşəm görünürdü.

***Rəhman SALMANLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***




# Azərbaycan Vyanada keçirilən "Beynəlxalq dəmir yolu konqresi 2019"da təmsil olunur

Azərbaycan Vyanada keçirilən "Beynəlxalq dəmir yolu konqresi 2019"da təmsil edilir.

"Azərbaycan Dəmir Yolları" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, "Beynəlxalq dəmir yolu konqresi 2019" Avrasiya marşrutunun mövcud nəqliyyat dəhlizləri çərçivəsində rəqəmsal texnologiyalardan və tranzit potensialından istifadə edərək beynəlxalq yük və sərnişin daşımalarının səmərəliliyinin artırılması problemlərinə həsr olunur.

Konqresdə "Bir kəmər, bir yol: Beynəlxalq əməkdaşlığın inkişafı", "İnvestisiyaların cəlb edilməsi yolu: Nəqliyyat layihə infrastrukturunun maliyyələşdirilməsinin qlobal transformasiyası", "Rəqəmsal dəmir yolları və ağıllı infrastruktur: rəqəmsallaşdırma, standartlaşdırma və miqyaslama", "Nəqliyyat infrastrukturunun inkişafında sinerji və miqyas effekti", "Sərhədləri aşaraq: beynəlxalq əməkdaşlıq, standartlaşdırma və miqyaslama", "Çeviklik və gələcəyin logistika mərkəzləri" sessiyaları çərçivəsində gömrük maneələrinin azaldılması yolları, həmçinin Avropa və Asiya arasında dəmir yolu nəqliyyatının fəaliyyətini tənzimləyən hüquqi və texniki qaydaların uyğunlaşdırılması məsələləri müzakirə edilir.

Konqresdə Rusiyanın nəqliyyat naziri Yevgeni Ditrix, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Rusiya Dəmir Yolları" ASC-nin prezidenti Oleq Belozyorov, Polşa Dövlət Dəmir Yolunun rəisi Kşiştof Maminski, "Avstriya Federal Dəmir Yolları"nın baş direktoru Andreas Matte, Belarus dəmir yollarının rəisi Vladimir Morozov, İsveçrə dəmir yollarının baş direktoru Andreas Meyer, Slovakiya dəmir yollarının baş direktoru Yuray Tkaç, eləcə də "enli" və "ensiz" izlərə malik dövlətlərin milli dəmir yolu şirkətlərinin, ixtisaslaşdırılmış beynəlxalq təşkilatların və beynəlxalq bank sektorlarının rəhbərləri iştirak edirlər.

"Beynəlxalq dəmir yolu konqresi 2019" 1520 millimetr və 1435 millimetr izli dəmir yolları məkanındakı milli dəmir yolu şirkətləri rəhbərlərinin görüşməsi üçün ən iri iş platformasıdır.

Konqresə dəvət edilmiş şirkətlər Avrasiya marşrutunda daşımaların həcminin artımına və Şərqlə Qərb arasında dəmir yolu dəhlizinin davamlı inkişafına töhfə verməkdədirlər. Konqres dövlət-özəl tərəfdaşlığın ən yaxşı təcrübələrinə əsaslanaraq, nəqliyyat infrastrukturunun modernləşdirilməsinə, quruda daşıma xərclərinin azaldılmasına, həmçinin 1520 millimetr və 1435 millimetr izli dəmir yolu məkanındakı qarşılıqlı əlaqələrin standartlaşdırılmasına və intensivləşdirilməsinə yönəlmiş sistemli həllərin tapılmasına istiqamətlənib.

# Füzuli rayonundakı hərbi hissədə “Açıq qapı” günü keçirilib





Füzuli rayonunda yerləşən hərbi hissədə “Açıq qapı” günü keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, “Açıq qapı” günündə Milli Məclis Sədrinin müavini Bahar Muradova, rayon icra hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nümayəndələri, əsgər valideynləri, Qarabağ müharibəsi veteranları və şəhid ailələri iştirak edib.

Milli Məclis Sədrinin müavini Bahar Muradova “Açıq qapı” günü ilə bağlı keçirilən tədbirdə əsgər və zabitləri Novruz bayramı münasibətilə təbrik edib, onlara vətənimizin müdafiəsində möhkəm dayanmağı arzulayıb. Ölkəmizdə həyata keçirilən ordu quruculuğundan danışan Milli Məclis Sədrinin müavini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən ordumuzun güclənməsi istiqamətində uğurlu siyasət həyata keçirilir. Bu gün Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqaz regionunun ən güclü, nizam-intizamlı və müasir silahlarla təchiz olunan, hərbi-texniki strukturlara, bacarıqlı hərbçi kadr potensialına malik ordusuna çevrilib.

“Biz bütün imkanlarımızı səfərbər edərək, müasir müstəqil Azərbaycan dövlətini qura bilmişiksə, Azərbaycan dünyada sayılan-seçilən bir dövlətə çevrilibsə və dünyanın bütün nöqtələrindən getdikcə daha aydın, daha parlaq görünürsə, buna görə, ilk növbədə, xalqa və ordumuza borcluyuq. Xalqla ordunun birliyi Azərbaycanı bütün çətinliklərdən aydın sabahlara aparan əsas amildir”, - deyə B.Muradova vurğulayıb.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev üçrəngli, ay-ulduzlu bayrağımızın Qarabağda dalğalanmasının hər bir azərbaycanlının ən böyük arzusunun olduğunu bildirib. O, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qüdrəti ilə buna nail olacağımıza, hazırda işğal altında olan bütün torpaqlarımızda Novruz tonqallarının yenidən qalanacağına inamını ifadə edib.

Milli Məclis Sədrinin müavini Bahar Muradova əsgər valideynləri, Qarabağ müharibəsi veteranları və şəhid ailələri ilə görüşüb. Xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim edilib.

Qonaqlar şəxsi heyətin xidməti, yaşayış və məişəti üçün yaradılan şəraitlə maraqlanıb, qida rasionuna daxil olan ərzaqlar, əşyalar və geyimlərlə tanış olub, hərbi hissənin ərazisində ağac əkib, əsgərlərlə birgə nahar ediblər.

Tədbirdə bayram tonqalı qalanıb. İncəsənət ustalarının ifasında rəngarəng konsert proqramı əsgər və valideynlərdə əsl bayram əhvali-ruhiyyəsi yaradıb.

# Kolumbiya Universitetinin professoruna ADA Universitetinin fəxri doktoru adı verilib






**ABŞ-ın Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, professor, BMT baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saks ADA Universitetinin fəxri doktoru seçilib.**

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, rektor Hafiz Paşayev elmi şuranın qərarına əsasən ictimai siyasət və iqtisadiyyat elminə əhəmiyyətli töhfələrinə görə fəxri doktor diplomunu və universitetin xatirə medalını qonağa təqdim edib. Rektor amerikalı alimlə ABŞ-da Azərbaycanın səfiri qismində görüşlərini, o cümlədən 2004-cü ildə professor C.Saksın moderatorluğu ilə Kolumbiya Universitetində Prezident İlham Əliyevin yerli ictimaiyyətin böyük marağını cəlb edən çıxışını xatırladıb.

Verilən fəxri ada görə ADA Universitetindəki həmkarlarına minnətdarlığını bildirən C.Saks mərasimdə qlobal dayanıqlı inkişaf mövzusunda məruzə ilə çıxış edib. Vurğulayıb ki, bəşəriyyətin qarşısında duran müxtəlif təhdidləri nəzərə alaraq, dünya ölkələri dayanıqlı inkişafı hədəfləməlidirlər. Ətraf mühitə dağıdıcı təsirini göstərən müasir ekstensiv iqtisadiyyatların təsirini təkcə istehsalçı deyil, istehlakçı da anlamalı və məntiqli yanaşmanı bir qaydaya çevirməlidir. Xüsusilə enerji sahəsində alternativ resurslara müraciətin qaçılmazlığını bildirən alim, bölgə dövlətlərini qlobal çağırışlara birgə əməkdaşlıqla cavab verməyi tövsiyə edib. Azərbaycanın yerləşdiyi regionda mövcud münaqişələrin dərhal həlli zərurətindən danışan professor C.Saks bildirib ki, münaqişələrin həlli və regionun gələcəyi üçün daha sıx iqtisadi əməkdaşlığın yaradılması vacibdir. Həmçinin nəqliyyat infrastrukturu inkişaf etdirilməli, milli iqtisadiyyatlar fövqəlnüfuzlardan asılı olmayan şəkildə, öz qüvvələri hesabına dayanıqlı qurulmalıdır.

Tədbir ADA Universitetinin tələbə və professor heyətinin sual-cavab sessiyası ilə davam etdirilib.

Qeyd edək ki, professor C.Saksın adı ABŞ-ın “Time” jurnalı tərəfindən dünyanın 100 ən nüfuzlu liderləri siyahısında yer alır.

# *Bahar MURADOVA:* “Novruz tonqallarını doğma Qarabağımızda qalayacağıq”

## *Baharın gəlişi Füzulidə el şənliyi kimi qeyd edilib*





Xalqımızın milli bayramı olan Novruz cəbhə bölgəsində yerləşən Füzuli rayonunda el şənliyi kimi geniş qeyd olunub. Baharın gəlişi münasibətilə Horadiz şəhərindəki olimpiya idman kompleksində ümumrayon tədbiri keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, mərasim iştirakçıları Novruz adət-ənənələrini özündə əks etdirən sərgi ilə tanış olublar. Milli adət-ənənələrimizə uyğun olaraq qız-gəlinlər yun darayıb, nehrə çalxayıb, sacda yuxa bişiriblər.

Dədə Qorqud və Bahar qızı meydana daxil olub, Novruz tonqalı alovlandırılıb. Mərasimdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev iştirakçıları bayram münasibətilə təbrik edib, onlara cansağlığı, xoşbəxtlik, bol ruzi və əmin-amanlıq arzulayıb. O, milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü dövlət siyasətindən, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bu sahədəki xidmətlərindən bəhs edib.

Bayram mərasimində iştirak edən Milli Məclis Sədrinin müavini Bahar Muradova füzulililərə xalqımızın əziz bayramı münasibətilə xoş arzularını çatdırıb. “Novruz bayramı arzuların, niyyətlərin həyata keçməsi bayramıdır. İnanıram ki, işğal altında olan torpaqlarımız Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində tezliklə azad ediləcək və biz Novruz tonqallarını doğma Qarabağımızda qalayacağıq”, - deyə B.Muradova bildirib.

Novruzun personajları olan Kosa və Keçəl, Uşaq Yaradıcılıq Mərkəzinin şagirdləri tonqal ətrafında yallı gediblər. Bayram adətinə görə uşaqlar yumurta döyüşdürüblər. Kosa və Keçəlin şən zarafatları, Dram Teatrının aktyorlarının ifasında yumoristik səhnələr, rayon idmançılarının nümunəvi çıxışları, mədəniyyət işçilərinin konsert proqramı tədbir iştirakçılarının bayram əhvali-ruhiyyəsini daha da artırıb.

# Ən fəal tələbə-könüllülər mükafatlandırılıb



Martın 18-də Təhsil Nazirliyində bu qurumun “Bir” Tələbə-Könüllü proqramının 2018-ci il üzrə ən fəal 14 tələbə-könüllüsü mükafatlandırılıb.

AZƏRTAC xəbər verir ki, mükafatlandırma mərasimində təhsil nazirinin müavini Firudin Qurbanov müasir dünyada təhsilin mühüm rolunu vurğulayıb, Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə daim böyük önəm verdiyini bildirib.

“Bir” Tələbə-Könüllü proqramı barədə fikirlərini bildirən F.Qurbanov diqqətə çatdırıb ki, son illərdə ölkəmizdə keçirilmiş beynəlxalq, eləcə də dövlət əhəmiyyətli tədbirlərin təşkilində tələbə-könüllülərin uğurlu fəaliyyəti və əvəzsiz rolu olub. Nazir müavini bu proqramın ötənilki fəaliyyətini yüksək qiymətləndirib.

Sonra Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Qərbi Kaspi Universiteti, Azərbaycan Texnologiya Universiteti və Sumqayıt Dövlət Texniki Kollecindən 2018-ci il üzrə ən fəal tələbə-könüllülər sertifikatla mükafatlandırılıb.

Qeyd edək ki, 7 şəhər, 37 təhsil müəssisəsindən 20 mindən çox tələbə-könüllünü birləşdirən proqram indiyədək “Formula-1” Azərbaycan Qran-Prisi, IV İslam Həmrəyliyi Oyunları, Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı, Bakı marafonları, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir, Bakı Şopinq Festivalı, Bakı Humanitar Forumu, “BMX Racing” növü üzrə dünya çempionatı, ümumilikdə 6 istiqamət üzrə 400-dən çox tədbirdə uğurla fəaliyyət göstərib.

# Sumqayıt bulvarında möhtəşəm Novruz növrağı



Hər bayramı bir-birindən maraqlı və təmtəraqlı keçirmək artıq Sumqayıtda adət halını alıb. Elimizin qədim bayramı olan Novruza bu dəfə də xüsusi hazırlıq görülüb. Bunu həm ümumşəhər miqyasında, həm də ayrı-ayrı məhəllə, küçə, evlərdə, maarif, mədəniyyət və səhiyyə ocaqlarında yaranan əhvali-ruhiyyədən duymaq, görmək mümkündür.

Hələ Su, Od, Yel və Torpaq çərşənbələrində şəhərin müxtəlif guşələrində - məhəllə və mikrorayonlarında tonqallar çatılır, sakinlər gecəyarıdan keçənədək ocaq başında şənlənirdi. Dinindən, millətindən asılı olmayaraq hamı bu bayrama xalqımızın ulu tarixinin ən nəcib adət-ənənəsi kimi böyük ehtiramla yanaşır.

Şəhər əhalisini atların və carçının səsi yuxudan ayıltdı. “Ey şəhər əhalisi! Ölkəmizə əziz bayramımız - Novruz gəlir! Onu qarşılamaq hamımızın borcudur! Hər biriniz şəhər bulvarına dəvətlisiniz!”

Səhər saatlarından başlayaraq böyüklü-kiçikli hamı şəhər bulvarı istiqamətinə axışırdı. Küçələrdə maşınlar görünmürdü. Yaşayış binalarının eyvanlarında insanların bahar rəmzlərini asması bu incəliyi bir qədər də gözəlləşdirirdi.

Sumqayıt bulvarı isə gözəlliyi ilə ora toplaşanları valeh edirdi. Şəhər musiqi məktəblərinin şagirdlərinin ifalarında səslənən mahnı və rəqslər insanları hərəkətə gətirmişdi. Şəhər sakinləri onlara qoşulub ifa və rəqs edirdilər.

Şəhər bulvarında diqqəti cəlb edənlərdən biri də quraşdırılan əzəmətli qızılı və qırmızı çadırlar, müasir texnologiyalarla bəzədilmiş səhnə idi.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları və ictimaiyyətin nümayəndələri bulvarın girəcəyindəki seçilmiş məkana doğru addımladılar. Aramla meydana daxil olan Dədə Qorqud Oğuz elinin əzəmətindən söz açdı. Novruz ətrinin yerlərə göylərin ərməğanı olduğunu bildirdi.

Bildirildi ki, bu il Sumqayıtın 70 yaşı tamam olur. Ölkə rəhbəri bu günün keçirilməsi ilə bağlı müvafiq fərman imzalayıb. Ümummilli lider Heydər Əliyev 15, Prezident İlham Əliyev isə 23 və son üç ildə 9 dəfə Sumqayıta səfər edib. Bütün bunlar şəhərimizə verilən yüksək dəyərin təzahürüdür. İlləri arxada qoyan sumqayıtlılar 70 ildə çox şey qazanıblar. Bu gün Sumqayıt Cənubi Qafqazın ikinci sənaye mərkəzidir. İnsanların yaşam səviyyəsinə, şəhərin təmiz havasına görə Sumqayıt təkcə Azərbaycanda deyil, Avropada da seçilir. Gələcək illərdə isə bu növraq daha da artacaqdır.

Tədbir iştirakçılarına üstündə 70 yazılmış səmənilər paylandı. Birlik və həmrəylik bayramının rəmzlərindən olan tonqalı Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı alovlandırdı. Böyük insan selinin bulvarın içərilərinə doğru irəlilədi.

Burada nələr yox idi. Milli məişətimizi əks etdirən səhnələr göz oxşayırdı. Bir yanda idmançılar öz məharətlərini nümayiş etdirir, başqa bir tərəfdə rəsm həvəskarlarının əsərlərindən ibarət sərgi insanları özünə cəlb edir. İncəsənət ustalarının iştirakı ilə keçirilən milli adət-ənənələri əks etdirən, yaşı keçmişlərə gedib çıxan alətlər, nehrələr, şəkərbura, paxlava bişirənlər, səmənidən hazırlanan halvalar və sairələri ictimaiyyət nümayəndələri tərəfindən böyük maraq və rəğbətlə qarşılanır.

İştirakçılar Naxçıvan, Şəki, Şirvan, Qarabağ, Bakı və digər adlar yazılmış çadırlara yaxınlaşırdılar. Tariximizin maraqlı səhifələri vərəqlənirdi. Dədə Qorqud nəsihəti, Memar Əcəmi düşüncəsi, Şah İsmayıl qüdrəti ətrafa toplaşanları heyrətə salır. Kosa və Keçəl isə meydan sulayır. “Novruz gəlir, yaz gəlir” adlı konsert proqramı könülləri oxşayır. Minillərin keşməkeşi arandı və səhnələrdə ötənlərin vəhdəti yaranır.

Bayram xalq gəzintisi ilə gecə yarıdan keçənədək davam etdi. Xəzərin sahilində məkan salan bulvar sanki sevincini insanlarla bolüşürdü.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Bakıda keçirilən idman gimnastikası üzrə dünya kuboku yarışlarına yekun vurulub









**Martın 17-də Bakıda idman gimnastikası üzrə dünya kuboku yarışlarına yekun vurulub. AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasında keçirilən turnirin sonuncu günündə kişilər dayaqla tullanma, dəstəli at, turnik, qadınlar isə gimnastika tiri və sərbəst hərəkətlər üzrə yarışların final mərhələsində güclərini sınayıblar.**

Kişilər arasında dayaqla tullanma yarışlarında Koreya Respublikasından olan gimnast Haksin Yanq 14,970 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Ukrayna gimnastı İqor Radivilov 14,833 xalla ikinci, rusiyalı Denis Abliazin isə 14,766 xalla üçüncü yerdə qərarlaşıblar.

Dəstəli at yarışlarında kişilərin mübarizəsində yaponiyalı Kohey Kameyama 15,233 xalla dünya kubokunun qızıl medalını qazanıb. Fransa təmsilçisi Siril Tommason 14,833 xalla ikinci, çinli Hao Venq 14,033 xalla üçüncü olublar.

Kişilərin turnik yarışlarında niderlandlı Epke Zonderland 14,633 xalla bütün rəqiblərini qabaqlayıb. Xorvatiyalı Tin Srbiç 14,600 xalla gümüş, İsveçrə gimnastı Oliver Heqi 14,366 xalla bürünc



medal qazanıblar. Avstraliya təmsilçisi Emma Nedova qadınların gimnastika tiri yarışlarında proqramını icra edərək hakimlərdən 14,100 xal alıb və bütün rəqiblərini qabaqlayıb. Fransa təmsilçisi Marine Boyerin hesabında da eyni xal olub və hakimlərin qərarı ilə o, yarışı ikinci pillədə başa vurub. İlk üçlüyü Yaponiya gimnastı Mana Oquçi 13,200 xalla qapayıb. Azərbaycan təmsilçisi Marina Nekrasova 11,366 xalla dünya kuboku yarışlarında yeddinci olub.

Qadınlar arasında sərbəst hərəkətlər üzrə yarışlarda ABŞ idmançısı Ceyd Keri 14,600 xal toplayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İtaliya gimnastı Lara Mori 13,866 xalla yarışı ikinci, həmyerlisi Vanessa Ferrari (13,733) isə üçüncü pillədə başa vurublar.

Qeyd edək ki, Azərbaycan dünya kuboku yarışlarını 1 gümüş medalla başa vurub. Turnirin üçüncü günündə kişilərin halqalarla yarışlarında gimnastımız Nikita Simonov fəxri kürsünün ikinci pilləsində yer alıb.

Turnir “Tokio 2020” Yay Olimpiya Oyunlarında iştirak etmək istəyən idmançılar üçün mühüm əhəmiyyət daşıyıb. Olimpiadaya təsnifat xarakterli bu yarışda iştirak etmək üçün 41 ölkə qeydiyyatdan keçib. Medallar və lisenziya xalları uğrunda mübarizəyə 121 kişi və 49 qadın idman gimnastı mübarizə aparıb. Turnirə Olimpiya Oyunlarının, dünya və Avropa çempionatının medalçıları qatılıblar.

# Prezident hədiyyəsi

**◆ Zəlzələ bölgəsindən reportaj**

**"Xoş gəlmisiniz, ay bala, gələn ayaqlarınız var olsun. Görün nə gözəl ev tikdirib İlham oğlum. Allah ona uzun ömür versin. Dar günümdə əlimdən tutdu, köməyim oldu. Bir ağbirçək ana kimi sözümü yerə salmadı. Mənə söz verdi, dedi ki, narahat olma, təzə ev tikiləcək. Tikdirdi də...**
**Nə görürsünüzsə, hamısını İlham oğlum bağışlayıb. Allah onlara cansağlığı versin, xətadan-bəladan qorusun!**
**İlham oğlum, Mehriban qızım başımı uca elədilər, elə bil, dünyanı bağışladılar mənə..."**
**Azərbaycanda artıq məşhurlaşan Saray nənəni Prezidentin hədiyyəsi olan yeni evində ziyarət etdik...**



## 9 ballıq zəlzələyə davamlı dördotaqlı ev

Şamaxıda baş verən zəlzələ nəticəsində evi dağılan 92 yaşlı Saray nənə bu gün Novruz bayramını, İlaxır çərşənbəni yeni evində qeyd edəcək.

Prezident İlham Əliyev cəmi bir aya ağbirçək anaya yeni ev tikdirib. Özü də əvvəlkindən daha əzəmətli, daha möhtəşəm.

On beş gün öncə Saray nənəyə baş çəkərkən növbəti dəfə yeni mənzilində görüşmək ümidi ilə sağollaşmışdıq. Cəmi iki həftə keçdi və bu gün o, yeni mənzilində xoşbəxt anlarını yaşayır. Yenə də qonağıyıq Həsənovlar ailəsinin...

İlk dəfə fevral ayının 9-da burada olarkən qarşılaşdığımız mənzərədən əsər-əlamət qalmayıb. Uçub-dağılmış evin yerində indi 9 ballıq zəlzələyə davamlı daha möhtəşəm dördotaqlı ev tikilib.

Saray nənə, həmişəki kimi, divanda və ya çarpayıda deyil, otağın yuxarı başında yerdə yastığa dirsəklənərək fikrə dalıb...

## Yeni evimizdə yeni həyata başlamışıq

Tam təmirli otaqlar yeni avadanlıqlarla təchiz olunub. Otaqda diqqətimizi ilk çəkən dolabın üzərindəki şəkil olur. Prezident İlham Əliyevin fevralın 7-də Şamaxıya səfəri zamanı Saray nənə və ailə üzvləri ilə birlikdə çəkilən foto böyük çərçivəyə salınaraq unudulmaz xatirə kimi saxlanılır.

Çəkiliş başlayan kimi Saray nənənin üzündə təbəssüm yaranır və şirin ləhcəsi ilə danışmağa başlayır: *"Yenə çəkirsiniz?! Allah köməyiniz olsun, ay bala. Görürsünüz, İlham oğlumun şəklidi. Qoymuşam düz gözümün qabağına. Hər gün baxıb dua edirəm...*

*Öncəki səfəri zamanı Mehriban qızımı xəbər almışdım. Demişdi ki, təzə ev tikiləndə o da gələcək. Gəldi də... İkisini bir yerdə gördüm, elə sevindim ki...*

*Halımı-əhvalımı soruşdu. Dedi ki, İlham oğlum ona məndən çox danışıb. O da məndən ötrü darıxırmış.*

*Hər ikisi əzizimdi. Allah onları min budaq eləsin, hər ikisinə canım qurban. İndi elə rahatam ki..."*

Saray nənənin gəlini Sevda Həsənova bizi otaqlarla tanış edə-edə deyir ki, ümumu sahəsi 131 kvadratmetr olan 4 otaq tam təmir olunub, otaqlar və mətbəx hər bir əşya, mebel dəstləri ilə təchiz edilib, istilik sistemi qurulub. Hamam kompleksi də daxildədir.

Çox sevincli görünən evin xanımı deyir ki, Prezidentə nə qədər alqış etsələr, yenə də azdır: *"Tanrı Prezidentimizi qorusun. Nə yaxşı ki, İlham Əliyev kimi rəhbərimiz var. Novruz bayramını belə gözəl evdə qeyd edirik. Buna görə Prezidentə minnətdarıq. Allah Prezidentimizə, xanımı Mehriban Əliyevaya yar olsun. Dar günümüzdə dadımıza yetdilər. Artıq yeni həyata başlamışıq. Bu, Prezidentin hədiyyəsidir. Bizə bu gözəl şəraiti yaratdıqlarına görə ömür boyu Əliyevlər ailəsinə minnətdar olacağıq".*

Bir qədər söhbətləşdikdən sonra Saray nənəyə cansağlığı arzulayaraq sağollaşıb ayrıldıq.

## Prezident bizə təzə ev tikdirdi, ilk qonağımız da özü və xanımı oldu

Fövqəladə Hallar Nazirliyi tərəfindən yaradılan xüsusi komissiyanın rəhbəri Kamran Əliyev deyir ki, Şamaxıda artıq 3 ev tikilərək sakinlərə təhvil verilib, 4 evdə tikinti işləri tamamlanmaq üzrədir, 15 evin isə tikintisinə yeni başlanılıb.

Novruzu yeni mənzilində qeyd edənlərdən biri də Tərlan Əliyarbəyov küçəsindəki 7 nömrəli evdə yaşayan Həsənovlar ailəsidir. 82 yaşlı Elmira Həsənovaya məxsus mənzil tam qəzalı duruma düşdüyü üçün onlara üçotaqlı yeni ev tikilib.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 7-də Şamaxıya səfərləri çərçivəsində Həsənovlar ailəsinin də qonağı olublar və bu görüş onların həyatına unudulmaz gün kimi yazılıb.

Elmira Həsənova deyir ki, zəlzələ 1964-cü ildə tikilən evini yararsız hala salmışdı. FHN-in komissiyası baxış keçirdikdən sonra yeni mənzilin tikilməsi barədə qərar verdi:

*- Mən bir ana kimi Prezidentə minnətdaram. Bizi darda qoymadı. Harayımıza, imdadımıza yetişdi. Bizə göstərdiyi qayğını hər kəs gördü. Köhnə evlərimizin yerində əvvəlkindən daha yaxşısını tikdirdi. Baxın, bütün evlər yeni əşyalarla doludur. Hətta qab-qacağımızı da təzə alıblar. Cəmi bir aya Prezident bizə təzə ev tikdirdi. Elə təzə evimizin ilk qonağı da özü və Mehriban xanım oldu. Vallah, belə Prezident heç yerdə yoxdur. Mehriban qızımın yaxşılıqlarından hamı danışır. Biz də gördük... Allah onların balalarını, nəvələrini gözlərinə çıraq etsin.*

**Əvvəl**







**İndi**







Elmira nənənin adını daşıyan nəvəsi Elmira Həsənli isə hələ də Mehriban xanım Əliyeva ilə etdiyi şirin söhbətin xoş təəssüratlarını yaşayır. Deyir ki, mart ayının 7-si onun taleyində ən yaddaqalan gün olacaq.

## Prezidentimə sevgimi, təşəkkürümü ifa etdiyim mahnı ilə çatdırdım

Üz tutduğumuz digər mənzil isə Səttar Bəhlulzadə küçəsindəki Vüqar Teyfurova məxsus 10 nömrəli evdir. Onun mənzilinin divarları zəlzələ nəticəsində deformasiyaya uğramışdı. Ona görə də komissiyanın qərarı ilə Teyfurovlar ailəsinə yeni ev inşa edilib.

Elə evin kandarında bizi qarşılayan da Vüqar Teyfurov oldu. Məlum oldu ki, iş və dərs saatı olduğu üçün evdə başqa adam yoxdur. Bu mənzil də bütün avadanlıqlarla təchiz edilib. Ev sahibi musiqiçi olduğu üçün Prezident ona "Yakub Beltmann" pianino zavoduna məxsus yeni pianino da hədiyyə edib.

Martın 7-də yeni mənzilində dövlət başçısını və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı qonaq edən Vüqar Teyfurov dedi ki, görülən işlərin miqyasını, dəyərini, Prezidentin onlara bəxş etdiyi sevincin həddini sözlə ifadə etmək çətindir:

*- Özünüz də görürsünüz. Dövlət bizə necə möhtəşəm ev tikib. Bir evə lazım olan bütün avadanlıqlarla təchiz edilmişik. Əlavə nə isə almağa ehtiyac qalmayıb. Sadəcə yorğan-döşəklərimizi gətirmişik, vəssalam. Prezident bu evi bizə həm də Novruz hədiyyəsi kimi bağışlayıb.*

*İlham Əliyev həqiqətən Azərbaycan üçün, xalq üçün böyük işlər görür. Hər şey göz qabağındadır. Mən musiqiçiyəm və görürəm ki, bu gün sənətə, sənətkara yüksək qiymət verilir. Məktəblər, uşaq bağçaları, musiqi ocaqları açılır və Azərbaycana bağlı yeni nəsil yetişir. Bunun hamısı Azərbaycan Prezidentinin yürütdüyü siyasətin tərkib hissəsidir.*

*Şamaxı sakini olaraq dövlət başçımıza dərin təşəkkürümü bildirirəm. İnsanların qayğısına qalan, xalqına dayaq olan Prezident hər zaman böyük etimada layiqdir. Ona görə də xalq hər zaman etimad göstərdiyi liderin arxasında bir yumruq kimi birləşib.*

*Prezident və Mehriban xanımla görüşdə sanki daxildən mənə bir vəhy gəldi və iki mahnını - "Ana" və "Xalq Heydər söyləyəcək" mahnılarını improvizə ilə ifa etdim. Bu ifa ilə dövlət başçısına minnətdarlığımı bildirdim. İfa etdiyim musiqi Prezidentə ürək sözlərim idi.*

Vüqar Teyfurov deyir ki, bu görüş onun üçün unudulmaz bir xatirədir. Hər dəfə həmin görüş yadına düşəndə "Xatirələr" mahnısını ifa edərək o xoş dəqiqələri yenidən yaşayır. Xahişimizi nəzərə alaraq həmin musiqini bizim üçün də ifa etdi və söhbətimizi xoş təəssüratlarla yekunlaşdırdıq.

## Şamaxı, Ağsu və İsmayıllıda ümumilikdə 561 qəzalı mənzil var

Zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində Prezident İlham Əliyevin tapşırıq və göstərişinə uyğun olaraq Fövqəladə Hallar Nazirliyinin xüsusi komissiyası öz işini davam etdirir.

Qeyd edək ki, zəlzələdən dərhal sonra dövlət başçısı sərəncam imzalayaraq fəsadların aradan qaldırılması ilə bağlı ehtiyat fondundan 2 milyon manat vəsait ayırmışdı. Martın 7-də respublikanın şimal bölgəsinə səfərdən sonra isə daha bir sərəncamla Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi üçün Prezidentin Ehtiyat Fondundan 11 milyon manat, o cümlədən yaşayış evlərinin, sosial və infrastruktur obyektlərinin tikintisi və onlarda bərpa-gücləndirmə işlərinin davam etdirilməsi üçün Fövqəladə Hallar Nazirliyinə 5 milyon manat, yaşayış evlərinin təmiri üçün Şamaxı, İsmayıllı və Ağsu rayon icra hakimiyyətlərinin hər birinə 2 milyon manat ayrıldı.

Kamran Əliyev deyir ki, komissiyaya Şamaxı üzrə 5341, Ağsu üzrə 1935, İsmayıllı üzrə isə 910 müraciət daxil olub. Şamaxıda 5329, Ağsuda 1807, İsmayıllıda 888 evə baxış keçirilib. Müəyyən edilib ki, Şamaxıda 266, Ağsuda 198, İsmayıllıda 97 qəzalı mənzil var. Şamaxıda 1214, Ağsuda 315, İsmayıllıda 262 mənzilin bərpasına və gücləndirilməsinə ehtiyac var.

## 44 mənzildən ibarət dördmərtəbəli bina inşa olunur

Hazırda Şamaxının Salman Mümtaz, Səttar Bəhlulzadə, Vidadi, Hacı Məmmədov, Azadlıq küçələrində sökülən mənzillərin yerində yeni evlər tikilməkdədir. Mənzillər tezliklə sakinlərinə təhvil veriləcək.

Onu da əlavə edək ki, dövlət başçısı martın 7-də Şamaxıda zəlzələdən zərər çəkmiş ailələr üçün tikiləcək yeni yaşayış binasının da təməlini qoyb. Rayonun 20 Yanvar küçəsi ilə M.H.Şəhriyar küçələrinin kəsişməsində tikilən binada tikinti işləri sürətlə davam edir. Tikintiyə 50-yə yaxın işçi qüvvəsi və xeyli sayda texnika cəlb edilib.

Kamran Əliyevin sözlərinə görə, burada 44 mənzildən ibarət dördmərtəbəli bina tikiləcək. Digər evlər kimi, bu binada da bütün mənzillər zəruri infrastrukturla təchiz ediləcək. Mənzillərinin ümumi sahəsi 2947.2 kvadratmetr olan binada 4 ədəd birotaqlı, 32 ikiotaqlı və 8 üçotaqlı mənzil olacaq.

## Xalqın ehtiram ünvanı

Bütün bunlar bir daha təsdiq edir ki, sözü ilə əməli üst-üstə düşən İlham Əliyev verdiyi vədlərin vaxtında reallaşdırılması üçün əlindən gələni əsirgəmir. Bir ayda iki dəfə zəlzələ bölgəsinə səfər edən dövlət başçısı sakinlərlə görüşlərində bildirmişdi ki, bütün qəzalı evlər sökülərək, yerində daha möhtəşəm evlər tikiləcək.

Cəmi bir ay keçdi və zəlzələdən zərər çəkmiş sakinlər yeni mənzillərinə qovuşdular. Bir müddətdən sonra isə daha bir neçə ev tam hazır olacaq. Müvəqqəti sığınacaqlarda yaşayan ailələr üçün 44 mənzilli dördmərtəbəli bina da tikiləcək.

Şamaxıda gördüyümüz mənzərə onu deməyə əsas verir ki, ölkəmizdə təbii fəlakətdən əziyyət çəkən hər bir vətəndaşın problemlərinin həlli istiqamətində ciddi addımlar atılır. Evi qəzalı durumda olanlar üçün yeni mənzillər tikilir, bərpaya ehtiyacı olan evlərdə isə təmir-bərpa işləri aparılır. Müvəqqəti sığınacaqlarda qalan ailələr həm də tezliklə tikiləcək dördmərtəbəli binada yeni mənzillə təmin olunacaqlar.

Bütün bunlar isə dövlətin vətəndaşlara münasibətinin, daim yanlarında olmasının real təzahürüdür.

*Rəşad BAXŞƏLİYEV,*
*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*























# Bakı ilə Şimali Qafqazın şəhərləri arasında əməkdaşlıq genişlənir

Novruz bayramı şənliklərində iştirak etmək üçün Rusiya Federasiyasının "Dərbənd şəhəri" şəhər dairəsinin başçısı Hizri Abakarovun rəhbərliyi ilə Dərbənd şəhəri və Maqas şəhərinin meri Beslan Tceçoyevin başçılığı ilə nümayəndə heyətləri Bakıya gəliblər.





Bakıya gəlişlərinin ilk günündə qonaqlar İçərişəhəri gəzib, qədim şəhərin tarixi abidələri, Şirvanşahlar Saray Kompleksi və Qız qalası ilə tanış olub, Heydər məscidini ziyarət ediblər. Martın 18-də nümayəndə heyətləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı önünə tər güllər düzülüb. Qonaqlar görkəmli dövlət xadimi Əziz Əliyevin də məzarı üzərinə gül dəstələri düzüblər. Daha sonra qonaqlar Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyublar. Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr edən nümayəndə heyətlərinə Şəhidlər xiyabanının tarixi və Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla Rusiya Federasiyasının Dərbənd və Maqas şəhərləri nümayəndə heyətlərinin görüşü keçirilib. Görüşdə qonaqları salamlayan Eldar Əzizov ölkələrimiz arasında çox qədim dostluq və qonşuluq münasibətlərinin olduğunu deyib. Bildirib ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının rəsmi səfərləri və görüşləri böyük rol oynayır.

Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayan Eldar Əzizov bildirib ki, bu əlaqələrin qurulmasında Şimali Qafqaz respublikalarının xüsusi rolu var: "Bu gün Azərbaycan ilə Dağıstan və İnquşetiya arasındakı münasibətlər bir çox sahələrdə inkişaf edir. Qarşılıqlı səfərlər əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açır. Yüksəksəviyyəli siyasi münasibətlər iqtisadi əlaqələrə də öz təsirini göstərməkdədir".

Azərbaycan ilə Şimali Qafqaz xalqlarının uzun əsrlərdən bəri sülh və dostluq şəraitində yaşadıqlarını söyləyən "Dərbənd şəhəri" şəhər dairəsinin başçısı Hizri Abakarov deyib ki, ölkəsində Azərbaycan ilə münasibətlərə xüsusi önəm verilir. Maqas şəhərinin meri Beslan Tceçoyev Bakıda göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək bu səfərin Bakı və Maqas şəhərləri arasında əlaqələrin möhkəmlənməsində xüsusi rol oynayacağını qeyd etmişdir. Hər iki nümayəndə heyətinin rəhbərləri Bakı şəhərinin gözəlliyinə valeh olduqlarını, burada aparılan geniş abadlıq və quruculuq işlərini yüksək qiymətləndirdiklərini bildirmişlər.

Sonra Bakı şəhəri ilə Dərbənd və Maqas şəhərləri arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanmış, xatirə hədiyyələri təqdim olunmuşdur.

Səfər çərçivəsində Dərbənd və Maqas şəhərləri nümayəndə heyətləri Bakıda təşkil edilən Novruz şənliklərində iştirak edəcək, eyni zamanda qonaqlar Heydər Əliyev Mərkəzi və Azərbaycan Xalça Muzeyi ilə tanış olacaq, Dənizkənarı Milli Bulvarı gəzəcəklər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Alan da razı, satan da

## Yasamal rayonunda təşkil olunan kənd təsərrüfatı məhsullarının bayram yarmarkası sakinlər tərəfindən məmnunluqla qarşılanır

Bu gün ölkədə iqtisadi və sosial sahələrdə qeydə alınan dinamik inkişaf əhalinin maddi rifah halının yüksəlməsi fonunda da özünü qabarıq şəkildə büruzə verir.













Bunlara paralel olaraq əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və bu zaman qiymətlərin də sərfəli şəkildə olması xüsusi diqqət mərkəzində yer alır. Prezident İlham Əliyevin tapşırığına əsasən Bakı şəhərində və ölkənin ayrı-ayrı bölgələrində Novruz bayramı münasibətilə kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarının fəaliyyətə başlaması da elə bu qəbildən olan hal kimi dəyərləndirilir.

Bu mənada paytaxtın Yasamal rayonunda, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısındakı parkda təşkil olunan və əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayan bayram yarmarkası da vətəndaşlar tərəfindən razılıqla qarşılanır. Bakı Şəhər və Yasamal Rayon İcra Hakimiyyətlərinin, Kənd Təsərrüfatı Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində "Kənddən Şəhərə" brendi altında təşkil edilən bayram yarmarkasının keçirilməsində məqsəd fermerlərin və sahibkarların öz məhsullarını əlverişli şəraitdə sata, əhalinin isə bu məhsulları ucuz qiymətə ala bilmələridir. Eyni zamanda Novruz bayramı ərəfəsində məhsul bolluğu yaratmağa, süni qiymət artımının qarşısını almağa nail olmaqdır. Qiymətlərin ucuz olmasına səbəb isə fermerlərin öz məhsullarını vasitəçilər olmadan birbaşa satışa çıxarmalarıdır. Həmçinin yarmarkalarda iştirak pulsuzdur. Bu amillər bazara çıxarılan məhsulun qiymətlərinin aşağı olmasına gətirib çıxarır.

Sıxlığın daha çox müşahidə olunduğu Yasamal rayonunun bayram yarmarkasında satışa mövsümə uyğun meyvə-tərəvəz və bayram süfrələri üçün başqa ərzaq məhsulları çıxarılmışdı. Bayramla bağlı qoz, fındıq, şabalıd, alma, heyva, naringi və digər sitrus meyvələri daha çox idi. Həmçinin çoxsaylı yerli firmalar da yarmarkada məhsullarını təklif edirdilər. Burada nümunəvi səliqə-sahman, fermerlərə və bazarlıq etməyə gələn paytaxt sakinlərinə əlverişli şəraitin yaradılması diqqəti daha çox cəlb edirdi. Yarmarkanın yüksək səviyyədə keçirilməsi üçün bütün şərait yaradılmışdı. Nəzarət tərəzisi qoyulmuş, lövhələrdə qiymətlərin bazardakılarla müqayisəsi göstərilmişdi.

Yasamal rayonundakı yarmarkaya kənd təsərrüfatı məhsulları əsasən Beyləqan, Masallı və Şamaxı rayonlarından gətirilib. 53 adda məhsul nəzərdə tutulduğu halda Yasamal yarmarkasında 80-dən çox məhsul satışa çıxarılıb. Vətəndaşların tələbatı nəzərə alınaraq və onların məmnunluğunu təmin etmək məqsədilə gündəlik fəaliyyət göstərən yarmarka martın 22-dək davam edəcək.

Xatırladaq ki, martın 2-də yarmarkanın açılışında iştirak edən Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev fermerlərlə, satıcılarla söhbət edərək onlara yaradılan şəraitlə, satışa çıxarılan məhsulların qiymətləri ilə maraqlanıb. Vurğulanıb ki, dövlət başçısının tapşırığı əsasında təşkil edilən bu yarmarkalarda məqsəd fermerlərin, sahibkarların və istehsalçıların öz məhsullarını əlverişli şəraitdə yarmarkada sata bilmələri, əhalinin isə ucuz qiymətə bu məhsulları almasını təmin etməkdir. Yarmarkalarda iştirak edən sahibkarların məqsədi satışa çıxardıqları məhsulların qiymətlərinin bazarlardakından xeyli ucuz olmasıdır.






Dünən isə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov yarmarkaya gələrək burada satıcılar və alıcılar üçün yaradılmış şəraitlə tanış oldu, məhsulların keyfiyyəti, rayon sakinlərinin rəy və təklifləri ilə maraqlandı. Qeyd etdi ki, yarmarkadakı qiymətlər bazarlardakından xeyli aşağıdır. Bakıya kifayət qədər kənd təsərrüfatı məhsulları gətirilib. Yarmarkaların məqsədi paytaxt əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməkdir.

Alıcılar da yaradılan şəraitdən, məhsulların keyfiyyətindən və qiymətlərindən razı qaldıqlarını bildirdilər. Yasamal rayon sakini Namiq Məmmədov yarmarkada təklif edilən meyvə-tərəvəz, göyərti və ağartı məhsullarının təzə və keyfiyyətli, eyni zamanda, bazarlardakından 25-30 faiz ucuz qiymətə olmasından razılıq edirdi.

Yarmarkaya nəvələri ilə birlikdə gələn Xudayar Əfəndiyev isə dövlətin süni qiymət artımı ilə bağlı gördüyü tədbirlərin öz səmərəsini verdiyini vurğuladı: "Bilmirik nəyə görəsə hər il Novruz bayramı gələndə bazarlarda satılan kənd təsərrüfatı məhsullarının qiyməti həddindən artıq bahalaşır. Söz yox ki, bunu bəzi möhtəkirlər edirlər. Sevindirici haldır ki, hər bayramdan öncə açılan yarmarkalar bütün bunlara son qoydu. İndi sərbəst şəkildə yarmarkaya gedib istədiyimiz kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən 30-40 faiz ucuz alırıq. Təklif olunan məhsulların keyfiyyəti də qənaətbəxşdir. Bizə bu şəraiti yaradanlara minnətdarlığımızı bildirməklə yanaşı, belə yarmarkaların bütün rayon və şəhərlərdə çox sayda təşkil olunmasını arzu edirik".

Yasamal rayonu ərazisində təşkil edilən bayram yarmarkasında satan da razıdır, alan da. Satılan məhsulların keyfiyyətinə, istehlak üçün yararlı və təhlükəsiz olmasına, qiymətlərin tənzimlənməsinə ciddi nəzarət olunurdu.

***Elçin CƏFƏROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Atçılıq Federasiyasının növbəti ümumi yığıncağı keçirilib





Martın 16-da Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) növbəti ümumi yığıncağı keçirilib.

Yığıncaqda Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, ARAF İdarə Heyətinin üzvləri və 100-ə yaxın federasiya üzvü iştirak edib.

Ümumi yığıncağın əvvəlində son illər ərzində Azərbaycan Respublikasında atçılığın tərəqqisinə, beynəlxalq yarışlarda qazanılmış uğurlara həsr olunmuş sənədli film nümayiş etdirilib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin giriş sözündən sonra federasiyanın baş katibi Bəhruz Nəbiyev 2009-cu ildən etibarən federasiya tərəfindən görülmüş işlərlə bağlı geniş məruzə edib.

Federasiyanın vitse-prezidenti Mahir Muradov son beş il ərzində atçılığın konkur növü üzrə görülmüş işlər, vitse-prezident Elşad Abbasov son beş il ərzində cıdır üzrə görülmüş işlər barədə, federasiyanın idarə heyətinin üzvü Bəsirət Quliyev milli at cinsləri və milli atüstü oyunlarla bağlı məruzələr ediblər.

Sonra federasiya prezidentinin seçkiləri keçirilib, Elçin Quliyev ümumi yığıncaq üzvlərinin maksimal səs çoxluğu ilə yenidən növbəti beş il müddətinə ARAF-ın prezidenti seçilib.

Ümumi yığıncağın qərarı ilə ARAF-ın birinci vitse-prezidenti vəzifəsinə Mahir Muradov, vitse-prezident vəzifələrinə Elşad Abbasov, Bəsirət Quliyev, Sakit Məmmədov, Bəhruz Nəbiyev seçilib və idarə heyətinin üzvləri təsdiq olunublar.

Səsvermədən sonra ARAF prezidenti Elçin Quliyev çıxış edib, göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib, gələcək planlar və görüləcək işlər haqqında geniş məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində milli atçılığın böyük inkişaf yolu keçməsi xüsusi vurğulanıb, ARAF-ın fəaliyyəti dövründə əldə olunmuş nailiyyətlər, Qarabağ və Dilbaz milli at cinslərinin qorunması və təbliğatı üçün görülən işlər haqqında geniş məlumat verilib, milli atçılığın inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər ətraflı şərh olunub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dəstəyi ilə çövkən milli atüstü oyununun 2013-cü ildə UNESCO-nun təxirəsalınmaz qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmasının milli atçılığın inkişafı üçün xüsusi əhəmiyyəti vurğulanıb.

Son illər ərzində atçılıq idmanı sahəsində əldə olunmuş əsas nailiyyətlər sırasında 2009-cu ildən etibarən ölkəmizdə atçılığın konkur növü üzrə beynəlxalq turnirlərin təşkilinə başlanılması və ildən-ilə bu turnirlərin sayının əhəmiyyətli dərəcədə artması, 2010-cu ildən cıdır yarışlarının keçirilməsi, 2010-cu ilin martında 1-ci Milli Atçılıq Festivalı çərçivəsində çövkən üzrə ilk respublika çempionatının təşkil edilməsi və bu turnirlərin ənənəvi olaraq keçirilməsi, 2012-ci ildən başlamaqla üç dəfə Böyük Britaniya Kraliçası II Elizabetin şərəfinə təşkil olunan təntənəli atçılıq tədbirlərində Qarabağ atlarının möhtəşəm şou proqramlarının nümayiş etdirilməsi, 2013-cü ilin sentyabrında "Polo vətənə qayıdır" devizi ilə ölkə ərazisində ilk beynəlxalq arena polo yarışının, 2014-cü ildə "Polo vətəni tanıdır" devizi ilə növbəti arena polo üzrə Dünya Kuboku turnirinin təşkil olunması, 2014-cü ildə Beynəlxalq Atçılıq Federasiyasının növbəti Baş Assambleyasının Bakıda keçirilməsi, 2015-ci ildə Polo üzrə Azərbaycan Milli Komandasının Avropa çempionu tituluna sahib olması, Avropa çempionatından sonra Azərbaycan Prezidenti İlham Əliyevin ARAF rəhbərliyini və polo komandasının üzvlərini qəbul etməsinin, onları təbrik etməsinin, tapşırıq və tövsiyələr verməsinin idmançıları daha yüksək qələbələrə ruhlandırması, 2018-ci ildə Polo üzrə Azərbaycan Milli Komandasının İtaliyanın Siene şəhərində keçirilən Avropa çempionatında gümüş medalın sahibi olması, 2018-ci və 2019-cu illərdə Azərbaycan poloçularının İsveçrənin Sankt Moritz şəhərində keçirilən Qar Polosu üzrə Dünya Kuboku turnirlərində iştirak etməsi və hər iki yarışın üçüncüsü olması, 2020-ci ildə 8 komanda arasında keçiriləcək Polo üzrə Avropa çempionatına Bakının evsahibliyi etməsi barədə qərarın qəbul olunması, 2015-ci il I Avropa Oyunlarında, 2017-ci il İslam Həmrəyliyi Oyunlarında, cümhuriyyətin 100 illiyinə həsr olunmuş parad və digər tədbirlərdə yüksəksəviyyəli iştirakın təmin olunması diqqətə çatdırılıb.

***"Azərbaycan"***

# Yenilənmiş 10 manatlıq pul nişanı dövriyyəyə buraxılıb

Azərbaycan Respublikası Mərkəzi Bankı yenilənmiş 10 manatlıq pul nişanını dövriyyəyə buraxır.

Bankdan AZƏRTAC-a bildirilib ki, yenilənmiş 10 manatlıq pul nişanı martın 18-dən tədavülə buraxılır. Bu pul nişanı hazırda tədavüldə olan 10 manatlıq pul nişanı ilə paralel olaraq dövriyyədə olacaq və hər iki pul nişanı tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.

Mərkəzi Bank tərəfindən dizayn mövzusu "Azərbaycan tarixi"nə həsr olunmuş 10 manatlıq pul nişanının təkmilləşdirilməsi və mühafizə elementlərinin müasirləşdirilərək daha yüksək standartlara uyğunlaşdırılması həyata keçirilib. Yenilənmiş 10 manatlıq pul nişanında əsas dizayn elementləri (İçərişəhərin və Qız qalasının sxematik təsviri, Azərbaycanın xəritəsi və Avropaya inteqrasiya, bir sıra milli xalça naxışları) saxlanılıb.




Mühafizə sistemlərinə gəldikdə isə, mövcud 10 manatlıqdan fərqli olaraq, yeni pul nişanında su nişanı kimi Azərbaycanın dövlət gerbi təsvir olunub.

Pul nişanının ön tərəfində Qız qalasının təsvirini, hərəkət edən dalğaları və rəngi dəyişən nominalı əks etdirən 3D effektli yeni holoqram (LEAD) yerləşir. Holoqramın müxtəlif hissələrində rəngi dəyişən minimətnlər və nominalın rəqəmləri görünür. Eyni zamanda, banknotun ön tərəfində İçərişəhərin qala divarlarını əks etdirən, rəngi yaşıldan göyə dəyişən, 3D hərəkət və dinamik işıq effektləri saçan möcüzəli boya (SPARK LİVE®) yerləşir. Pul nişanının kənarlarında görmə qüsuru olan insanlar üçün qabarıq xətlərdən ibarət tanınma elementi əks olunur.

Pul nişanının arxa tərəfində isə üzərində işıqda görünən "10" rəqəmi və "AMB" yazısı olan pəncərə tipli, rəngi yaşıldan göyə dəyişən yeni mühafizə sapı (Rolling Star®) yerləşir. Eyni zamanda, üzərində "10 AZN" yazıları olan sayrışan bənövşəyi və qızılı rəngli zolaqlar əks etdirilib.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Aşağı Əskipara kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qorqan, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.




# Torpaq çərşənbəsi







Foto Ağaəli MƏMMƏDOVUNDUR

Novruz bayramının ən gözəl mərasimlərini özündə cəmləşdirən, təntənəli bayram və bayram axşamı səviyyəsində olan Axırıncı çərşənbə yazın gəlməsinə daha az vaxtın qaldığına işarədir. Bu çərşənbə xalq arasında "Yer çərşənbəsi", "İlaxır Çərşənbə", "Çərşənbə-suri" adları ilə də tanınır.

"Qurani-Kərim"in "Rum" surəsində "(Allah'ın) sizi torpaqdan xəlq etməsi Onun dəlilərindəndir. Sonra da siz bir insan kimi (yer üzünə) yayıldınız" cümləsi ilə Adəmin yaradılışının torpaqdan olduğu vurğulanır. Hələ qədim dövrlərdən bəri insanın ən böyük andı torpaqla bağlı olaraq "Torpaq haqqı", "Yer haqqı" deyilmiş, "Torpağı sanı yaşayasan" alqışı ilə dualar edilmiş, "Torpaqdan pay olmaz", "Torpaq deyir: "Səndən hərəkət, məndən bərəkət", "Torpaqla oynayan ac qalmaz", "Sular hərəkətlidir, torpaq bərəkətlidir", "Torpaqda itki olmaz, kötüksüz bitki olmaz" və bu kimi el məsəlləri yaranmışdır.

Türk mifologiyasına görə, yatmış torpaq oyanaraq insanları aclıqdan qurtarır. Bir el rəvayətinə görə, Xızır qardaşı, torpaq sahibi Zindəni donmuş halda, qar altından tapır, öz isti nəfəsilə qızdırır. Zində qar altından çıxaraq itmiş öküzünü tapır, Xızır isə qızıl kotanla boyunduruğu qardaşına verir. Onlar çərşənbələşir, Yer çərşənbə bayramı tədbirilə torpağı oyatmağa çalışırlar.

Torpaq çərşənbəsində əkinçilər əkin-biçinə başlamalı olur. Yerlər şumlanır, toxumlar səpilir. İnanca görə, əcdadlarımız həmin çərşənbədə tarlaya çıxar, torpağı şumlayar, torpağı 4 dəfə belləyərdilər. Burada məqsəd torpağı yuxudan oyatmaq və artıq əkinçilik vaxtının yetişdiyini xəbər verməkdir. Qoyunun, qoçun, malın buynuzlarına qırmızı parça bağlanması da adətlərdəndir.

Qədimdən gələn digər bir adətə görə, Axır çərşənbə günü qadınlar, qızlar çilələrini tökmək üçün çay üzərinə yollanır və sudan tullanarmışlar. Həmin gün axşam vaxtı tonqallar qalanır, hamı od ətrafına yığışaraq onun istisinə qızınmağa çalışır.

Torpaq çərşənbəsində insanlar öz qohumlarını yad edir, onlara qonaq gedir, dünyalarını dəyişmiş insanların qəbirlərini ziyarət edirlər. Əcdadlarımız çərşənbə və bayram günlərində ruhların qayıdıb gəlməsinə inanarmışlar. Ruhların şad olması üçün bu dünyaya qayıdarkən ev sakinlərini, əzizlərini şən əhvali-ruhiyyədə görməsi əsas şərtlərdən idi. İnanca görə, ruhun evdən-ocaqdan bikef qayıtması uğursuzluq əlamətidir.

Evin bərəkətli olması üçün əcdadlarımızın həyata keçirdiyi rituallardan biri Axır çərşənbədə un çuvallarının ağzını açıq qoymaqdır. Ev sahibinin heç kimlə danışmadan əllərini una batıraraq divarlara sürtmək, bayıra çıxıb ağacların kötüyünü balta ilə yüngülcə vuraraq "oyan, payını götür" demək bu ayinin tərkib hissəsidir. Əcdadlarımız inanmışlar ki, bu cür edilərsə, yeni ildə qış yuxusundan oyanmış ağacların bəhəri gen-bol olacaqdır. Heç bar verməyən ağacları isə "kəsəcəyəm" deyə balta ilə hədələyir və bu zaman kənarda durmuş bir adam "kəsmə, bu ağac bar verəcək, zaminəm" deyir.

Bu çərşənbədə evdən od, neft, kibrit, ağartı qidaları verilməsi düzgün hesab olunmur. Axır çərşənbə öz falları ilə əlamətdardır. Axır çərşənbə süfrəsindəki yeyilən balığın sümüyü ilə ilk övladın qız və ya oğlan olmasını, üzük ilə subayların evlənmə vaxtını təyin etmək fal inanclarındandır. İlaxır çərşənbədə bir yerə yumurta, kömür, cövhər basdırar və niyyət edərlərmiş. Yumurta kömür ilə yazılarsa, niyyət yaxşı gələr. Sonra onları ərik ağacının altında basdırmaq lazımdır.

*Sürü deyil, naxırdı,*
*Qazan dibi paxırdı.*
*Sonuncu çərşənbənin*
*Öz adı İlaxırdır.*

İlaxır çərşənbənin ən maraqlı adətlərindən biri sevən oğlanların sevdiyi qızlara etirafları üçün bacadan şal sallamasıdır. Ucuna balaca dəsmal bağlanmış şal bacadan sallanar, evin böyükləri yaylığı açıb şalı qızın qoluna bağlayarlarsa, bu, razılıq əlaməti demək idi. Əgər razı deyillərsə, həmin dəsmala şirniyyat qoyub onu geri qaytararlarmış.

İlaxır çərşənbədə subay qızlar bir çox fallara baxar, qismətlərinin necə, həyat yoldaşlarının kim olacağını, neçə yaşında ərə gedəcəklərini öyrənirlər. Bu fallar su, şam, üzük, iynə və başqa əşyalarla icra olunur. Məsələn, gənc qızlar yanan şamı suya tərəf əyir və neçə yaşı varsa, o qədər damcıladır. Alınacaq hərf gələcək həyat yoldaşının adının baş hərfi ilə eyniləşdirilir. İnanca görə, gənc qızlar duzlu kökə yeyib və ya on alma toxumunu başının altına qoyub qismətlərindəki gələcək həyat yoldaşını yuxuda görürlər. Axır çərşənbə axşamı qız ayağının sağ başmağını burub qapı ağzında başının üstündən atır. Başmağın pəncə hissəsi üz üstə, qapıya tərəf düşsə, həmin il o qızın nişanlanacağına işarədir.

İlaxır çərşənbədə küsülülər barışmalı, hamı təzə paltar geyməli, xoş sözlər danışmalıdır. Bu çərşənbədə niyyət tutub qulaq falına çıxır, eşitdikləri sözlə niyyətlərini yozurlar.

Torpaq çərşənbəsində süfrələr daha da təmtəraqla bəzədilir. Həmin günü mütləq qazan asarlar. Bəzi bölgələrdə aşla bərabər, dolma, balıq bişirilməsi də vacib hesab olunur. Süfrəyə səməni, şamlar, şirniyyatlar, qoz-fındıq, bir çox çərəzlər, qovurğa qoyulur. Axır çərşənbədə yandırılan şamları yarımçıq söndürməzlər. Bayram xonçasına qoyulan şirniyyatların da rəmzi mənaları var. Süfrəyə qoyulan qoğalı günəşin, istiliyin, şəkərburanı Hilalın - Ayın, paxlavanı isə Ulduzun yerdəki rəmzi kimi götürmək olar. Şirniyyatların süfrəyə qoyulması ilin bərəkətli, ruzili və şən keçməsini mənalandırır.

Süfrəyə yeddi cür nemətin qoyulması müqəddəs sayılan yeddi rəqəmin uğur gətirəcəyinə işarədir. Azərbaycanın bir sıra bölgələrində İlaxır çərşənbənin "Yeddilərin bayramı" adlandırılması bununla əlaqəlidir. Süfrəyə qoyulan bu yeddi nemətin İslamdan öncə "ş", İslamın qəbulundan sonra "s" hərfi ilə başlaması maraq doğurur. Lap qədimlərdə son çərşənbədə süfrəyə qoyulan şərbət, şabalıd, şor, şəkər, şam, şirni, şərab, İslamdan sonra su, süd, səməni, səbzə, sumaq, sarıkök, sünbül kimi nemətlərlə əvəzlənmişdi.

Süfrədəki qırmızı qurşaqlı səməni isə öz yaşıl görkəmi ilə daha çox diqqət cəlb edir. Qurşağın qırmızı rəngdə olması şadlığı simvolizə edir. Göyərdilmiş səməni yaradılışı və qadın başlanğıcını ifadə edir. Belindəki qırmızı qurşaqla səməni gəlini də xatırladır. Səməni ilə bağlı xalq arasında ovsun da vardır. İnsanlar səməni ovsunu ilə pis taleyi dəyişdirmək istəyər, buna sidq-ürəkdən inanarmışlar.

Səməni ovsununda oğul-qız sahibi olmuş qadın göyərdilmiş səmənini İlaxır çərşənbə günü uşağı olmayan, çilləyə düşmüş sayılan qadının başı üstə saxlayır. O, bulaqdan, çaydan gətirilmiş "çərşənbə suyu"ndan bu səməninin üstündən çilləli qadının üstünə axıdır. Övlad sahibi olan başqa bir qadın çilləlinin üstünə axıdılan bu suyu qayçı ilə doğraya-doğraya deyir:

*Arpa, buğda dənidi,*
*Göyərən səmənidi,*
*Kəsdim, gəlin, çilləni,*
*Övlad vermək dəmidi.*

Başqa bir variantda "A səmənini göyərdən, bu gəlini də göyərt" kimi də söylənilir. Burada axıdılan suyu isə kişi başlanğıcı kimi götürmək olar.

Səməni nəziri adəti də bu günə kimi ötürülmüşdür. Qəlbində bir niyyəti olan adam qablara buğda töküb göyərtdirir, cücərtiləri əzib şirəsini çıxarır, şirəyə bir az su əlavə edib, iki-üç gün qaynadır, qoz-fındıq ləpəsi qatır, xonça sinilərinə töküb yayır. Bu xonçaları həyətdə qoyur, bütün gecəni dua edirlər. Səhər həmin bişmişin dadına baxırlar. Əgər bu bişmiş şirin olursa, bu, niyyətin qəbul olunduğu anlamına gəlir.

Səmənidən halvanı da bu ayindəki kimi düzəldirlər. Səməni halvasına bəzən sübhan halvası və ya İsfahan halvası da deyirlər. Ekoloji cəhətdən təmiz olan bu halva çox faydalıdır.

İlaxır çərşənbələrlə bağlı adət-ənənələr tarixən çox qədim və zəngin olmuş, lakin tədricən, zaman keçdikcə müasirləşən həyatın təsiri ilə unudulmuş, bəziləri isə başqa bir forma almışdır.

**_Səhər ORUCOVA,_**
**_filologiya elmləri doktoru,_**
**_professor,_**
**_Bakı Dövlət Universitetinin_**
**_Azərbaycan şifahi xalq_**
**_ədəbiyyatı kafedrasının_**
**_müdiri_**

**Girovluqda qalan yurdlar**

# Kəlbəcərdə son çərşənbə

...Sıra-sıra düzülən maşın karvanının ucu-bucağı görünmür. Hər kəs Murovun o biri üzünə keçməyə, Kəlbəcərdən uzaqlaşmağa tələsir...
Yük maşınında qalaq-qalaq insanlar intizarla ora-bura boylanır, yaranmış tıxacın nə zaman açılacağını gözləyir. Acı, dəhşət, qorxu bir-birinə qarışaraq insanlığın ən kədərli mənzərəsini cızıb onların üzündə...

Ucu şiş, sıldırım qayalarda daha qartallar qıy vurmur. Göyün üzünü qara bulud kimi örtmüş leş qarğalarının qarıltısı insan ah-naləsinə qarışıb.

Bu il nədənsə bahar da gecikir. Əvvəlki illərdə baharın gəlişinə bir xeyli qalmış kol altından boylanardı bənövşələr... Bu boynubükük, utancaq güllərdən dəstə tutardı cavan oğlanlar öz sevdiklərinə...

- Ana, yemək ver...

- Nə verim, ay bala? Heç nə yoxdur axı yeməyə. Bir az döz...

- Yemək istəyirəm...

Aclıqdan qıvrılan qarnımı qucaqlayaraq, zülüm-zülüm ağlayırdım. Əslində bu gün məktəbə geyinməli olduğum ağ kalqotkanın dizləri ağzımın-gözümün bir-birinə qarışmış suyundan tamamilə islanmışdı. Birdən bizimlə bərabər köç maşınının üstündə oturmuş tanımadığım bir qadının dediyi sözlər məni o qədər sevindirdi ki, dərhal ağlamağımı kəsib, əlimi irəli uzatdım. O, əlindəki boğçanı aramla açıb içərisindən Novruz bayramında bişirdiyi quzu fiqurunu çıxardı, başını kəsərək mənə uzatdı.

- Al ye... Niyə ağlayırsan ki, yekə qızsan...

Tez mənə uzadılan şirniyyatdan iri bir tikə qopardım və çeynəyib udmağa hazırlaşırdım ki, gözlərim quzunun mixək gözlərinə sataşdı. Bu gözlər mənə o qədər şeylər xatırladırdı ki, ağzımdakı tikəni elə hey çeynəyir, çeynəyir, uda bilmirdim...

* * *

...Xıdır Nəbi bayramı idi. Xıdır Nəbi Kəlbəcərdə fevral ayında keçirilirdi. Bu, çərşənbələrin, Novruzun gəlişinə hazırlıq idi. Hər həftənin dördüncü günü Kosa gəzdirilirdi. Kəndin cavan oğlanları bir evə yığışır, Kosaya dəridən hazırlanan xüsusi papaq, tərs çevrilmiş dəri gödəkcə geyindirir, əlinə taxtadan qılınc verirdilər. Axşam şər qarışanda Kosa digər cavanların müşayiəti ilə ev-ev gəzib, məşhur "A Kosa, Kosa, gəlsənə..." mahnısını oxuyur, payını yığırdı. Ona un, yağ, şəkər tozu, bəzən də pul verirdilər. Bütün evləri gəzib qurtardıqdan sonra əldə olunan ərzaqdan halva çalınır, bütün kəndə paylanırdı. Pul isə Kosa gəzdirənlər arasında bölünürdü.

Kosayla bağlı ağlıma gələn ilk fikir ondan çox qorxmağım idi. Birinci dəfə səsi gələndə qaçıb girmişdim çarpayının altına. Nə illah eləmişdilərsə, Kosa gedənə qədər ordan çıxmamışdım.

Anam isti çörək bişirib soyuması üçün süfrənin üzərinə düzmüşdü... Hələ də o gün bişən çörəyin ətri burnumdan getməyib...

* * *

Yanvar ayından etibarən yuxudan duran kimi uşaqların ilk işi toyuq hininə baş çəkmək idi. Çox yumurtaya ehtiyacımız var idi. O qədər çox ki, həm anamıza şirniyyat bişirmək üçün yetməli, həm onları al-əlvan boyamalı, ən əsası da döyüşdürməli idik.

Yumurtadöyüşdürmə işinə adətən qardaşlarım baxırdı. Yumurtalardan birini seçir, onu duzlu suda o qədər qaynadırdılar ki, daş kimi olurdu. Nəticədə qalib də mütləq onlar olurdu.

Yadıma düşmüşkən, balaca qardaşım heratı növündən olan bir xoruz saxlayırdı. Biz cürət edib böyüklər olmadan həmin xoruzun həndəvərinə yaxın dura bilmirdik. Axırıncı çərşənbədə xoruzları döyüşdürürdülər. Acı bibərdən yeyib, qəzəbini çıxarmağa yer axtaran xoruzlar bir-birinin pipiyini al-qana boyayırdı...

* * *

Fevral ayının axırıncı həftəsi səməni qoyardıq. Mütləq mən də bir nəlbəki götürərdim və öz səmənimi özüm qoyardım. Hər gün gedib-gəlir, bu balaca nəlbəkidəki səməniyə o qədər su verir, əlimlə buğdaları o tərəf-bu tərəfə çevirirdim ki, axırda səməni adına bir-iki cücərti çıxırdı. Amma həmin bir-iki tel səməni də mənə bəs edirdi fəxrlə deyim ki, bu, mənim səmənimdir...

* * *

Bütün gün gözləyirdik ki, şər nə vaxt qarışacaq, tonqal qalayaq (Biz buna küləş qalamaq deyirdik). Bir neçə gün malların qabağından yığdığımız saman, ot qalığını toplayaraq, səbirsizliklə axşamı gözləyərdik. Ən çox da məftilin ucuna bir topa əski dolayaraq hazırladığımız lopaları alışdırmaq üçün ürəyimiz gedirdi.

Nəhayət, o an yetişirdi və biz tonqalı qalayırdıq. Lopalar göyün üzünə işıq saçırdı. Bir də görürdün, lopadan sıçrayan qığılcımlar hansısa ot tayasına düşdü. Beləcə, səhərə qədər böyük bir tonqal yanırdı və bu, əlbəttə, daha çox biz uşaqları sevindirirdi...

Özüm tonqalın üstündən sərbəst tullanmağa qorxduğum üçün atam məni qucağına alaraq tonqalın üstündə o yana, bu yana üç dəfə fırladırdı. "Ağırlığım, uğurluğum, tökül-tökül, burda qal"... Hoppp...

* * *

Bir də gördüm nənəm məni səsləyir, ay bala, get gör əmin evdədir? Gəlsin bu kömbəni kəssin, atan evdə yoxdur. Hər bayram nənəm quyruq yağı, qoz, süd, undan kömbə bişirərdi. Bir yekə sacın içini yuyur, xəmiri ora yayırdı. Daha sonra başqa bir sacın da içini yuyub onun ağzına qapaq kimi qoyurdu. Sacın altını və üstünü tamamilə közlə örtürdü və nəticədə qıpqırmızı ləzzətli kömbə hazır olurdu.

Amma adətə görə mütləq həmin kömbənin ilkini ailəli kişi kəsməli idi. Daha sonra kömbə səliqə ilə doğranır və bütün qonşulara da pay verilirdi. Amma nənəm rəhmətə getdiyi üçün indi də bilmirəm ki, niyə həmin kömbəni kişi, özü də məhz ailəli kişi kəsməli idi. Təbii ki, nənəm sağ olan dövrdə də mən çox kiçik idim və bu cür halları təbii qəbul edərək sual verməyi belə ağlıma gətirmirdim...

* * *

Bir neçə qonşu yığışaraq, şəkərbura, paxlava, ümumiyyətlə, bayram şirniyyatını bir yerdə bişirirdi. Bu, həm şirniyyatların bişirilməsini asanlaşdırır, həm də qız-gəlinin deyib-gülmək üçün bir yerə yığışmasına bəhanə olurdu. Səhərə qədər yatmır, şirniyyat bişirirdilər.

Biz uşaqlar da yuxu güc gələnə qədər bu prosesdə iştirak edirdik. Gah şəkərburaya içlik qoymaq, gah da paxlavanın üzərinə fındıq yapışdırmaq kimi "kiçik tapşırıqları" yerinə yetirirdik. Onu da qeyd edim ki, bir gün əvvəlcədən kəndi taqqıltı səsi başına götürürdü. Əsasən də uşaqlar bir əlində çəkic sabahkı şirniyyatları bişirmək üçün qoz, fındıq, badam qırırdı.





Elə ki şirniyyatlar tamamilə bişib qurtarırdı, bərabər şəkildə onu paylara bölürdülər. Uşaqlardan birinin gözlərini bağlayırdılar, əllərini payın birinin üstünə qoyaraq soruşurdular ki, bu kimin payı, uşaq da deyirdi tutaq bu, filankəs xalanın. Beləcə, bütün paylar ədalətli şəkildə bölünürdü. Axırda da gözü bağlanan uşağa mükafat kimi bir şəkərbura, bir paxlava verilirdi. Buna görə də bu vəzifə üstündə uşaqlar arasında o qədər dava düşürdü ki...

* * *

İlaxır çərşənbə tonqalı yandırıldıqdan sonra bütün süfrələr bəzənirdi, xüsusilə də şirniyyatlarla, meyvələrlə. Xonçanın ortasında isə quzu fiqurlu şirniyyat olurdu. Boğazına qırmızı bağlayar, ağzına da bir tel səməni qoyardılar. Əksər hallarda bu quzuların bir qulağı yerində olmurdu. Çünki...

Elə təzəcə stolun altından başımı çıxararaq əlimi quzunun qulaqlarına uzadırdım ki, kiminsə gəldiyini eşitdim. Tələsik qulaqlardan birini qoparıb ağzıma qoydum, o biri isə əlimdən süfrəyə düşdü. Stolun altına girib elə ləzzətlə yeyirdim ki, bu quzu qulağını... Qopan digər qulaq isə, çox güman ki, yenidən kibrit çöpü ilə yerinə calaq ediləcəkdi...

* * *

Qoz, fındıq, şirniyyat, konfet, meyvə dolu boşqablarda qonşulara, qohumlara çərşənbəlik payı daşıyırdıq. Qablarımız boş qaytarılmır, ora bizim payda olmayan şirniyyatlardan, meyvələrdən qoyularaq geri göndərilirdi. Hərəmizin də günlər əvvəldən hazırladığımız ağzıbüzməli torbalarımız olurdu. Uşaqlar dəstə-dəstə yığışaraq həmin torbaları qapılara atıb, Novruz payı yığırdılar. Elə olurdu ki, bir qapıya 3-4 dəfə torba atırdıq. Heç birində də boş qaytarılmırdıq. Eh, uşaqlıq...

Səhər tezdən də bütün uşaqlar durub axşam paylardan, torbalardan yerə tökülən qoz-fındığı yığırdıq...

* * *

Həyətimizdə söyüd ağacı var idi. Bayram axşamı elə hey gözləyirdik ki, onun başı nə zamansa yerə dəyəcək və arzularımız həyata keçəcək. Bir də görürdük ki, yatıb qalmışıq və söyüd ağacı da çoxdan başını göyə qaldırıb. Səhər obaşdan hələ dan üzü ağarmamış qızlar durub gedirdi çay başına, "lal su" gətirməyə. Həmçinin də çayın içindən kiçik çınqıllar götürürdülər. Həmin sudan evin hər küncünə, həyətə səpər, çınqıllardan çörək təknəsinin dibinə, un kisəsinə qoyardılar ki, ev daim ruzulu və bərəkətli olsun.

* * *

Martın 21-i isə "aş bayramı" idi. Belə deyirdik. Mütləq evlərdə qaralı plov dəmlənərdi. Yanında da çölarmudu qaxından hazırlanmış şirə. Bu gün qohumlar, qonşular bir-birinin evinə gedər, mütləq o aşdan bir qaşıq da olsa dadardı.

Kəndin ortasında Novruz şənliyi keçirilərdi. Kəndirbaz olardı və Azərbaycanın heç bir bölgəsində olmayan Maral oynadardılar. Bu oyunda maral başlı və al-əlvan xalçalara bürünmüş kişi zurna sədaları altında elə gözəl rəqs edərdi ki... Sinəsinə saz basmış iki aşıq meydanda gərdiş edər, "Əsli və Kərəm" dastanını danışardı:

*Ərzurumun gədiyinə varanda,*
*Onda gördüm bürəm-bürəm qar gəlir.*
*Lələm dedi: "Gəl bu yoldan qayıdaq",*
*Dedim: "Lələ, qeyrətimə ar gəlir"...*

* * *

1993-cü ilin mart ayı idi. Elə bil ki, bu il bahar gəlməyə tələsmirdi. Havanın qaş-qabağı heç açılmırdı...

Artıq bir il idi ki, ermənilər Kəlbəcərin işıqlarını söndürmüşdü. Evlər ancaq neft lampaları ilə işıqlandırılırdı. Batareya ilə işləyən radiolardan istifadə edilirdi. Amma radionu açmağa qorxurduq. O dövrlər idi ki, Xocalının, Şuşanın, Laçının bir-birinin ardınca ermənilər tərəfindən tutulduğu elanını eşidirdik radiodan...

Heç kimin əli qalxmırdı ki, Novruza hazırlaşsın, bayram sevinci yaşasın. Biz uşaqlar isə bütün bunlardan xəbərsiz idik. Analarımızı məcbur etmişdik ki, kənddə generatorla işləyən çörək sexində bizə şirniyyat bişirsinlər, amma nə sirr idisə, bu Novruzda bişən kökələrin heç dadı yox idi...

* * *

1993-cü il aprelin 2-si idi. Murovun aşırımlarında maşın karvanının ucu-bucağı görünmürdü. Qoca, cavan, uşaq dolu bu karvan bizi o xoşbəxt Kəlbəcərli günlərdən sürətlə uzaqlaşdırırdı. Elə uzaqlaşdırırdı ki, indi o bəxtəvər günlərə xatirələrin yaddaşı ilə də qayıda bilmirik! Bəlkə də qayıtmağa qorxuruq! Xatirələrimizə nisgil hopub, kədər ayaq açıb...

* * *

- Ay bala, bəs bayaqdan ağlayırdın ki, acından ölürsən. Niyə udmursan o ağzındakı tikəni?

Kəsilmiş quzu başının mixək gözlərindəki kədər süzülüb içimdəki nisgilə qarışaraq məni hələ də boğur...

Ağlamaq, ürəyimi parçalayan bu ağırlıqdan qurtulmaq istəyirəm, ağlaya bilmirəm...

* * *

...Və 26 ildir bu yorğun, qəm yükü çəkən köç bir ağbirçək qadının dizlərinə döyə-döyə "Atam yurdu girov qaldı, aman heyyy..." hayqırtısı altında gecə-gündüz elə hey dayanmadan bilinməyənə doğru yol gedir...

**_Yasəmən MUSAYEVA,_**
**_"Azərbaycan"_**

# Metro unikal sərnişindaşıma vasitəsidir

## *Paytaxt sakinləri bunu gündəlik həyatlarında hiss edirlər*

**Fəaliyyətini müasir dövrün tələblərinə uyğun quran "Bakı Metropoliteni" QSC yarandığı ilk gündən heç bir fərq qoymadan ölkə mediasına daim açıq olub. Metropolitenin ictimai əhəmiyyətli bir qurum və şəhərin ən mühüm ictimai sərnişindaşıma nəqliyyatı vasitəsi olduğu nəzərə alınaraq, müəssisədə şəffaflıq, obyektivlik və operativlik kimi keyfiyyətlər daim prioritet meyarlar olaraq fəaliyyətdə rəhbər tutulub. Eyni zamanda, "Bakı Metropoliteni" QSC bu sahədə çağdaş dövrün bütün imkanlarından istifadə edərək, həm rəsmi internet saytı, həm də sosial şəbəkələrdəki səhifələri vasitəsilə ictimaiyyətə daim açıq bir təşkilat olduğunu təsdiqləyib.**

"Bakı Metropoliteni" QSC Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərdiyi yüksək diqqət və qayğı nəticəsində bu nəqliyyat növünün inkişaf etdirilməsi və mövcud infrastrukturun qorunub saxlanılması, yeni texnologiyaların tətbiq edilməsi və bununla da sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində son illərdə böyük həcmdə işlər görmüşdür.

Azərbaycan Respublikasının Prezidentinin 27 fevral 2014-cü il tarixli 289 saylı sərəncamına əsasən Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasından sonra yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Təsis olunduğu tarixdən keçən qısa zaman kəsiyində kollektivin fədakar əməyi sayəsində vahid bir təsərrüfat kompleksi olan metropolitenin maddi-texniki bazası gücləndirilməklə yanaşı, bütün sahələrdə, o cümlədən paytaxtın yol-nəqliyyat infrastrukturunda yüksək beynəlxalq standartların tətbiqinə nail olmaq, göstərilən nəqliyyat xidmətini müasir tələblər səviyyəsinə qaldırmaq, müasir korporativ idarəetmə mexanizmlərini tətbiq etməklə kadrların düzgün seçilməsi, yerləşdirilməsi, bilik səviyyələrinin artırılması istiqamətində köklü islahatlar aparmaqla ictimaiyyətə şəffaf fəaliyyəti ilə nümunəvi bir müəssisənin formalaşdırılmasına nail olunmuşdur.

Səhmdar cəmiyyət yarandığı dövrdən keçən qısa müddət ərzində müasir texnologiyalar tətbiq edilməklə metropolitenin infrastrukturunun vəziyyətini qiymətləndirən çoxfunksiyalı diaqnostika kompleksinin yaradılması, avtomatlaşdırılmış ödəniş sisteminə keçid, sərnişinlərin metropolitendən sərbəst istifadəsini məhdudlaşdıran, təbii ventilyasiyaya xələl gətirən bütün ticarət obyektlərinin metro ərazisindən kənarlaşdırılması, İSO standartlarının tələblərinə cavab verən dəmir-beton konstruksiyalarının istehsalının təşkili, elektrik deposunda işarəvermə, rabitə və videomüşahidə sisteminin bir mərkəzdən idarəolunması üçün 5 mərtəbəli Blok-Post binasının tikintisi və avadanlıqlarla təchiz olunması, bədii-memarlıq elementlərinin orijinallığını qorumaqla "Nizami" stansiyasının platformasının əsaslı təmir edilməsi,"Sahil" stansiyasının əsaslı təmir olunaraq müasir eskalatorlarla təchiz edilməsi, "20 Yanvar" və "İnşaatçılar" stansiyalarının eskalatorlarının yeniləri ilə əvəz olunması, altı stansiyanın keçidlərinin əsaslı təmiri, "Elmlər Akademiyası" stansiyasında yeni giriş və çıxışın inşası ilə yanaşı 1 vestibülün yenidən qurulması və eskalatorların dəyişdirilməsi işlərini görmüşdür. Elektrik deposunun elektrik təchizatının etibarlılığının və dayanıqlılığının gücləndirilməsi məqsədilə iki yarımstansiyanın tamamilə yeni texnoloji əsaslarla qurulması, respublikada bu vaxtadək mövcud olmayan və bu səbəbdən vaqonların cari və əsaslı təmiri üçün xarici ölkələrə göndərilməsinin və bununla da böyük həcmdə valyutanın xaricə köçürülməsinin qarşısını almağa imkan verən vaqonların təmir bazasının yaradılması, sistemin yolunun çəkilməsi, Təlim Tədris Mərkəzinin təsis edilməsi və digər bir çox irihəcmli layihələrin həyata keçirilməsi görülmüş işlərin yalnız müəyyən bir hissəsini təşkil edir və hazırda bu istiqamətdə yenidənqurma işləri davam etdirilir.Tezliklə əsaslı təmir olunan "Bakmil" stansiyası istismara veriləcəkdir. Cari ildə "Xətai" stansiyasının əsaslı təmiri başa çatdırıldıqdan sonra sərnişinlərin rahatlığı və təhlükəsizliyi üçün 3 köhnə eskalatorun yerinə 4 yenisi quraşdırılacaqdır. Hazırda Bakı şəhərində metro şəbəkəsinin inkişaf etdirilməsi istiqamətində işlər davam etdirilir.

"Bakı Metropoliteni" QSC təsis olunduğu ilk günlərdən müəssisə rəhbərliyi metropolitençilərin sosial məsələlərinin həllinə yönəlmiş fəaliyyət kursunu seçmişdir. Ağır əmək şəraitində çalışan fədakar metropoliten əməkdaşlarının səhhətinin qorunması, asudə vaxtlarının düzgün və səmərəli təşkili, ictimai iaşənin günün tələbləri səviyyəsində qurulması sosial sferada mühüm əhəmiyyət daşıyan vəzifələrdən olduğundan müəssisənin paytaxtın səfalı guşələrindən biri olan Bilgəh qəsəbəsində yerləşən sanatoriya-profilaktoriyasındakı, N.Nərimanov adına Elektrik Deposunda fəaliyyət göstərən sağlamlıq mərkəzindəki sosial təyinatlı tikili və qurğuların yüksək standartlar səviyyəsinə çatdırılması, mini-futbol, basketbol meydançalarının yaradılması, bu səhiyyə ocağının ən müasir tibbi və texniki avadanlıqlarla təchiz edilməsi, əməkdaşların sağlamlıqlarının keşiyində duran tibbi heyət üçün səhiyyənin müasir tələbləri səviyyəsinə cavab verən müalicə kabinetlərinin yaradılması istiqamətində cəsarətli addımlar atılmışdır. İstər Elektrik Deposu, istərsə də müəssisənin digər inzibati ərazilərində fəaliyyət göstərən fəhlə yeməkxanalarının vəziyyətindən, orada işçilərə göstərilən xidmətin səviyyəsindən, təklif olunan təamların keyfiyyətindən narazı qalan rəhbərlik bu sahədə təxirəsalınmaz dəyişikliklər edilməsi barədə qərar qəbul edərək müəssisə üzrə mövcud bütün yeməkxanaların qısa bir müddətdə əsaslı şəkildə təmir və iaşə avadanlığının ən son nümunələri ilə təchiz edilməsini təmin etmişdir. Metropolitençilərin yeməkxanaların xidmətlərindən rahat və əlverişli şəkildə istifadə etməsi üçün nağdsız və güzəştli ödəniş sistemi tətbiq edilmişdir.

Dəqiqlik, qərəzsizlik, vicdanlı olmaq, operativlik və bu qəbildən olan digər meyarlar mətbuatda əsas prinsiplər sayılır. Mətbu orqan öz fəaliyyətində bu prinsiplərə əməl etməklə jurnalistlərin "peşə davranışı qaydaları"nın təməl prinsiplərini rəhbər tutmalı, qarşı tərəfin fikirlərini önəm vermədən dəqiqləşdirilməmiş, qeyri-obyektiv məlumatları imkanlarından sui-istifadə etməklə yaymamalı, əmək kollektivlərindəki idarəetmə sistemləri barədə ictimaiyyətdə mənfi fikir formalaşdırmaq hallarına qarşı barışmaz mövqe tutmalıdır.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi bəzi kütləvi informasiya vasitələrinin bu nəqliyyat infrastrukturunda aparılan irihəcmli quruculuq işlərinə hər vasitə ilə kölgə salmağa cəhd edən, müəssisənin əldə etdiyi uğurlara fəxr etmək əvəzinə, bu nailiyyətləri sıravi vətəndaşın gözündən salmağa çalışan bir neçə işçinin şər, böhtan dolu və heç bir əsası olmayan iddialarının alətinə çevrilməsindən ciddi təəssüf və narahatlıq hissi keçirdiyini bildirir.




İlk növbədə, böyük təəssüf hissi ilə qeyd olunmalıdır ki, bəzi kütləvi informasiya vasitələrində ictimaiyyətə həqiqətə uyğun olmayan, təhrif olunmuş məlumatlar təqdim olunur və bununla da "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin əmək kollektivinin böyük əməyi sayəsində dünyanın ən aparıcı metropolitenləri ilə cəsarətlə rəqabət apara biləcək bir ictimai nəqliyyat vasitəsinə çevrilmiş Bakı Metropoliteninin xidmətlərindən istifadə edən sərnişinlərin nümunəvi xidmət səviyyəsi ilə seçilən bu nəqliyyat növü barəsində mənfi rəy formalaşdırılmağa çalışılır.

"Bakı Metropoliteni" QSC-nin kollektivi və rəhbərliyinə qarşı tamamilə əsassız, şər və böhtan xarakterli iddialar irəli sürülür ki, bu da müəssisənin zəhmətkeş və fədakar kollektivinin, eləcə də rəhbərliyinin nüfuzuna və işgüzar imicinə ciddi xələl gətirir.

Bəzi üzdəniraq "kütləvi informasiya vasitələri"ictimai rəylə manipulyasiya etməyə, həmçinin müxtəlif sahələrdə baş verən hadisələrə iftira ilə yalan donu geyindirərək, metropolitendən istifadə edən sərnişinlər arasında qorxu xofu hissini yaratmağa, yanlış ictimai rəy formalaşdırmağa cəhd edirlər."Bakı Metropoliteni" QSC-nin bu cür mövqe tutmuş bəzi kütləvi informasiya vasitələrinin "Azərbaycan jurnalistlərinin peşə davranışı qaydaları"nın təməl prinsiplərini kobud şəkildə pozması ilə bağlı 2018 və 2019-cu illərdə Azərbaycan Mətbuat Şurasına etdiyi müraciətləri bu qurumda obyektiv araşdırılmış və nəticədə öz səhifələrində həqiqəti əks etdirməyən məlumatları ictimailəşdirmiş üzdəniraq "kütləvi informasiya vasitələri"nin məqalələrində "Azərbaycan jurnalistlərinin "peşə davranışı qaydaları"nın təməl prinsiplərini pozulduğu müəyyən edilmiş və faktların subyektiv mülahizələrə əsaslanması səbəbindən bu mətbu orqanlar qarşısında təkzib vermək vəzifəsinin qoyulması barədə qərar qəbul edilmişdir.

"Bakı Metropoliteni" QSC-nin kollektivinə və onun rəhbərliyinə qarşı irəli sürülən ittihamlarla bağlı onu xüsusi vurğulamaq lazımdır ki, bu iddialarla bağlı məsələlərə aidiyyəti dövlət qurumları tərəfindən obyektiv qaydada baxılması təmin edilib.

Bakı Metropoliteni paytaxtın aparıcı ictimai sərnişindaşıma nəqliyyatı vasitəsidir. Hər gün metropolitendən 600 mindən çox sərnişin istifadə edir. Bütün bunlarla yanaşı, metropoliten öz xarakteri və fəaliyyət spesifikası ilə strateji əhəmiyyətə malik bir müəssisədir. Bunlar metropolitenə xüsusi həssaslıqla, diqqətlə yanaşmağı tələb edir. Çünki hər bir dəqiqləşdirilməmiş məlumat cəmiyyətdə mənfi rezonans doğura, metropolitendən istifadə edən əhalinin ayrı-ayrı təbəqələri arasında xoşagəlməz münasibət formalaşdıra, çaşqınlıq yaratmaqla metropolitendən istifadə edən insanlar arasında inamsızlıq, etimadsızlıq, qorxu xofu yarada bilər, müəssisə rəhbərliyinin işgüzar nüfuzuna xələl gətirə, altı minə yaxın, sözün həqiqi mənasında, zəhmətkeş kollektivin əməyinə ciddi zərbə vura bilər.

Xüsusilə qeyd etmək lazımdır ki, "Bakı Metropoliteni" QSC-də qatarlara istər texniki baxış, istər qulluq və xidmət, istərsə də növlərindən asılı olaraq, təmir prosesi tam şəkildə təlimat qaydalarına və bütün texniki tələblərə uyğun aparılır. Texniki baxış zamanı depoya xətdən daxil olan vaqonların qovşaqları ayrı-ayrılıqda yoxlanılır, təftiş edilir. Bu barədə müvafiq qeydiyyat aparılır. Texniki problem və yaxud aşkar edilən qüsurlar dərhal xüsusi kitabda qeydiyyata alınır.

Bakı Metropolitenində istismar olunan vaqonlardakı yeniliklər istehsalçı müəssisəsi - "Metrovaqonmaş"ASC tərəfindən həyata keçirilir. Bu qəbildən olan yeniliklər vaqonları istismar edən "Metro" Beynəlxalq Assosasiyasının üzvü olan digər MDB ölkələri metropolitenlərinə münasibətdə də tətbiq edilir. "Bakı Metropoliteni" QSC bir üzv kimi, hər bir yeniliyi assosiasiyanın digər üzvləri ilə daim müzakirə edir, təcrübə mübadiləsi aparır. Bakı Metropoliteninin mütəxəssisləri tətbiq edilən təcrübəni istehsalçı müəssisənin bazasında öyrənir. 2017-ci ildən "Bakı Metropoliteni" QSC-də ən müasir tələblər səviyyəsində qurulmuş vaqonların əsaslı təmiri sexi fəaliyyət göstərir. Həmin sexdə ən müasir və ekoloji cəhətdən təhlükəsiz şəraitdə vaqonların qumla təmizlənməsi və rənglənməsi prosesi həyata keçirilir. Eyni zamanda, vaqonların pnevmatik, elektrik və mexaniki hissələri ilə bağlı əsaslı modernləşdirmə işləri aparılır və bunların heç biri təmir prosesinə zidd deyildir və vaqonun konstruksiyasına heç bir xələl gətirmir. Qeyd olunmalıdır ki, hazırda vaqonların müasirləşdirilməsi geniş şəkildə Kiyev metropolitenində (yerli və Yaponiya mütəxəssisləri tərəfindən), Sankt-Peterburq metropolitenində (yerli və Almaniya mütəxəssisləri tərəfindən), Moskva metropolitenində (yerli və Fransa mütəxəssisləri tərəfindən), Tbilisi metropolitenində (yerli mütəxəssislər tərəfindən) həyata keçirilir. Əsaslı və orta təmir zamanı tətbiq edilən modernləşdirmə nəticəsində qatarların idarə edilməsi tam yenilənir və dövrün texnoloji tələblərinə uyğun elektron sistemə keçirilir. Hər vaqonda qurulan elektron sistemdən məlumatlar emal edilərək, maşinist idarəetmə panelinə ötürülür və nəticədə idarəetmə tam müasirləşdirilərək təkmilləşir, daha etibarlı və uzunömürlü olur. Xüsusi qeyd olunmalıdır ki, bu yeniliklər texnoloji innovasiyalar baxımından ən müasir dördüncü nəsil vaqonlarda tətbiq edilir və vaqonlarda konstruktiv dəyişikliklərə yol verilmədən həyata keçirilir.Vaqonların müasirləşdirilməsi zamanı vaqonun konstruktiv və baza ölçüləri qorunub saxlanılır, hərəkət təhlükəsizliyi daha çox təmin edilməklə istismar xarakteristikası daha da yaxşılaşdırılır.

Bakı Metropoliteni üzrə 8 oktyabr 2012-ci il tarixində təsdiqlənmiş "Fövqəladə hallar zamanı hərəkət qismən və ya tam dayandıqda sərnişinlərin tuneldən təxliyə olunması qaydaları" nın 4.7-ci bəndinə əsasən bir qayda olaraq sərnişinlər vaqonun təmas relsinin əks tərəfindəki yan qapılardan, gərginlik çıxarıldıqdan sonra isə hər iki tərəfin qapılarından düşürülə bilir.

81-717(714) seriyalı vaqonlarda, 8851-8835, 8847-8861, 0202-0205, 0180-8851, 10075-10076, 10043-10044 və digər baş vaqonlarda sərnişinlərin təxliyəsi üçün istehsalçı zavod tərəfindən nərdivanların quraşdırılması ümumiyyətlə nəzərdə tutulmamışdır. 81-717(714) seriyalı qatarlarda təmas relsindən yüksək gərginlik çıxarıldıqdan sonra sərnişinlər vaqonun yan qapılarından tunelə təxliyə olunur. Vaqonun ön hissəsində quraşdırılmış maskalar müasir tələblərə cavab verir və gövdənin ön tərəfinə quraşdırılan müasir dizayn görünüşlü hissə Rusiya istehsalı olan sertifikatlaşdırılmış məhsuldur.

"Bakı Metropoliteni" QSC-də vaqonların təmiri növündən asılı olaraq, normativ aktlara və texnoloji prosseslərə uyğun qaydada aparılır. Pnevmatik, elektrik və mexaniki hissələrin hər biri üzrə müvafiq təftiş, təmir tələblərinə tam əməl olunur. Təmir zamanı istismar müddətini başa vurmuş hissələrdən heç bir halda istifadə olunmur. Təmir zamanı növünə uyğun olaraq, hissələr təftiş olunub saxlanıla, sazlana, dəyişdirilə, yenisi ilə əvəz oluna və ya modernləşdirilə bilər. Bakı Metropolitenində istismardan çıxarılan vaqonların yalnız istismara yararlı olan hissələri ehtiyat kimi saxlanılır və istifadə olunur ki, bu da heç bir normativ aktla qadağan olunmayıb.

"İçərişəhər" stansiyasında quraşdırılmış ətalətli avtoəyləclər Bakı Metropolitenində qatarların hərəkəti avtoblokirovka sistemi ilə tənzimlənən zaman dəyişilmədən qalmışdır. 30.06.2017-ci il tarixdə keçirilmiş geniş tərkibli xüsusi müşavirədə aparılan təhlillər nəticəsində tam əminliklə müəyyən edilmişdir ki, bu avtoəyləc cihazları dəfələrlə elektrik qatarı stansiyadan çıxan zaman onu arxadan tutmuş və ekstremal əyləc sistemini işə salmışdır. Bu hal, hərəkət cədvəlində gecikmələr əmələ gətirməklə yanaşı, həm də sərnişinlərin narahatlığına səbəb olmuşdur. Hazırda Bakı Metropoliteninin Qırmızı və Yaşıl xətlərində qatarların hərəkəti "Avtomatik lokomotiv işarəverməsi" və "Sürətin avtomatik tənzimlənməsi" ALİ-SAT sistemi ilə tənzimlənir. Bunu rəhbər tutaraq bütün təhlükəsizlik tədbirlərini nəzərə almaqla "İçərişəhər" stansiyasında qatarların dövr etməsi sxemi həmin müşavirənin qərarı ilə "Bakı Metropoliteni" QSC-nin sədri tərəfindən imzalanmış 11.07.2017-ci il tarixli 483 saylı əmrə əsasən yenidən qurulmuşdur.

Texniki təhlükəsizliyin vəziyyətinə baxış məqsədilə cari ilin fevral ayında Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin aparıcı mütəxəssislərindən ibarət səlahiyyətli komissiya tərəfindən Vaqonların Əsaslı Təmiri sahəsi, dartı mühərrikləri təmiri sexi, Motovoz deposu, Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları təftiş edilmişdir. Baxış zamanı dartı mühərrikləri təmiri sexində işlərin Цметро 3896 "Правила ремонта и технического обслуживания тяговых и вспомогательных электрических машин моторовагонного подвижного состава метрополитенов" normativ sənədinin tələblərinə uyğun olaraq bütün proseslərə əməl olunmaqla həyata keçirilməsi, dartı mühərrikinin sınaq stendinin tam saz vəziyyətdə olması müəyyən edilmişdir. Komissiya üzvləri texniki təhlükəsizliyin vəziyyətinin yerində qiymətləndirilməsi ilə bağlı həyata keçirdikləri baxışla əlaqədar tərtib etdikləri 01.02.2019-cu il tarixli aktda DK-117, TDM-1 markalı dartı mühərriklərinin sınağının sexdə quraşdırılmış tam işlək sınaq stendində həyata keçirildiyini, dartı mühərrikinin sınaq stendinin pasportunun, sınaq stendində istifadə olunan ölçmə vasitələrinin yoxlanılması haqqında Azərbaycan Respublikasının Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi "Azərbaycan Metrologiya İnstitutu" tərəfindən verilən şəhadətnamələrin mövcudluğunu təsdiq etmişlər. Həmçinin komissiya üzvləri dartı mühərriklərinin sınaq stendində işlərin aparılması ilə əlaqədar elektrik ölçmə vasitələrinin yoxlanması hüququnu verən "Azərbaycan Metrologiya İnstitutu"nun verdiyi sertifikatla da tanış olmuşlar. Bundan əlavə, səlahiyyətli komissiya baxış zamanı sınaqların aparılması barədə məlumatların jurnalda qeydiyyatının aparıldığını, işçilərin təlimatlandırılması və biliklərinin yoxlanılmasının tələblərə uyğun olaraq həyata keçirildiyini müəyyən etmişdir.

Ümumiyyətlə, Bakı Metropolitenində istismar müddətini başa vurmuş, yaxud baxış, xidmət və növündən asılı olaraq, təmir müddətini ötərək, xətdə işləyən bir qatar belə yoxdur. "Bakı Metropoliteni" QSC yaradıldıqdan sonra "N.Nərimanov" elektrik deposunun maddi-texniki bazasının gücləndirilməsi, təchizata baxış prinsiplərinin tamamilə kökündən dəyişdirilməsi, mərkəzi anbar təsərrüfatının yaradılması, təmir prosesinin ardıcıllığının təmin edilməsi, iş prinsiplərinin təmir tələblərinə uyğun qurulması, əmək şəraitinin yaxşılaşdırılması, iş yerlərinin yenidən qurularaq müasir standartlar səviyyəsinə çatdırılması, eləcə də əl əməyini minimum həddə endirən və xüsusi ağır əl əməyinin aradan qaldırılmasına xidmət edən avadanlıq, qurğu və dəzgahların, ölçü vasitələrinin tətbiqi ilə vaqonların təmiri prosesi tam normallaşdırılmışdır.

"Bakı Metropoliteni" QSC və Fransanın THALES şirkəti arasında bağlanmış müqaviləyə əsasən Bakı metropoliteninin Bənövşəyi xəttində dünyanın ən mütərəqqi texnologiyası olan CBTC (Communications-based train control) sistemi yaradılır.

Hazırda Bənövşəyi xəttin istismara verilmiş "Avtovağzal-M.Əcəmi" stansiyaları arasında layihə üzrə nəzərdə tutulmuş bütöv sistemin bir hissəsi qurulub. Yolayırıcılar, sfetoforlar CBTC-nin tərkib hissəsi olan Mikroprosessor Mərkəzləşməsi sistemi ilə tam həcmdə idarə olunur. "Avtovağzal" stansiyasında quraşdırılmış Avtomatlaşdırılmış İş Yerindən qatarların hərəkəti təşkil edilir və buna nəzarət olunur. Qatarların harda yerləşməsi hər an stansiya növbətçisinin diqqət mərkəzindədir. Nəzərə alaraq ki, Bənövşəyi xəttin tikintisi davam edir və "Avtovağzal-M.Əcəmi" yol mənzilində elektrik qatarlarının yalnız məkik hərəkəti təşkil olunub, THALES şirkəti tərəfindən quraşdırılmış hərəkət təhlükəsizliyini təmin edən avadanlıqdan əlavə olaraq müvəqqəti xarakter daşıyan digər elementlər də quraşdırılıb. Lakin bundan asılı olmayaraq, dünyanın ən aparıcı şirkətlərindən olan Fransanın THALES şirkəti tərəfindən quraşdırılmış sxem öz fünksiyasını tam şəkildə yerinə yetirir.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti Beynəlxalq "Metro" Assosiasiyasının və Beynəlxalq İctimai Nəqliyyat Assosiasiyasının üzvüdür. Bu ictimai birliklərin sıralarına daxil olan dünyanın aparıcı ölkələrinin metropolitenlərində istər idarəetmədə, istərsə də elmi-texniki nailiyyətlərin tələblərinə cavab verən müasir texniki avadanlıqlardan istifadədə tətbiq olunan yeniliklərdən "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti də bəhrələnir. Bu xüsusda müəssisə elektrik qatarlarını idarə edən maşinistlərin hazırlanması sahəsində dünyanın aparıcı ölkələrinin metropolitenlərində geniş tətbiq olunan uğurlu təcrübənin paytaxt metrosunda da həyata keçirilməsini məqsədəuyğun hesab etmiş və respublikada yeganə olan öz bazasında təmənnasız olaraq maşinist hazırlığı kursunu təşkil etməklə yanaşı, maşinistlərin əmək hüquqlarının qorunmasına yönələn yeni iş qrafikinə keçidi gerçəkləşdirmişdir.

İnkişaf etmiş ölkələrin təcrübəsindən irəli gələrək həyata keçirilən yeni qrafikə keçiddən əvvəl səhmdar cəmiyyətin sədr müavini, qatarların istismarı üzrə iş departamentinin, Metropoliten işçiləri Həmkarlar İttifaqının, insan resursları strukturunun rəhbər şəxslərinin və mütəxəssislərinin iştirakı ilə səhmdar cəmiyyətin bütün maşinistləri ilə geniş tərkibdə görüşlər keçirilmiş, həmin görüşlərdə maşinistlərin irad və təklifləri nəzərə alındıqdan sonra qrafik daha təkmilləşdirilmişdir.

Yeni qrafikə keçid etməyin əsas səbəbi dünya təcrübəsinə uyğun olaraq maşinistlərin normal istirahətinin təşkil edilməsi və məsrəflərin azaldılmasıdır. Belə ki, əvvəllər maşinistlər axşam növbəsinə gələrək gecəyarısına kimi işləyib metropolitenin müəyyən etdiyi yerlərdə (qonaq otaqlarında və ya kirayəyə götürülmüş mənzillərdə) birgə gecələyərək səhər saat 05:00-da işə başlayıb 09:00-a kimi işlərini bitirib evə gedirdilər. Belə olduğu təqdirdə onların normal istirahəti təşkil edilmirdi. Təsəvvürə gətirmək çətin deyil ki, ən azı 6-7 saat işləmiş maşinist digər maşinistlərlə birgə eyni otaqda ən çoxu 3 saat yatdıqdan sonra normal yuxusunu almadan qatarı yenidən nə cür idarə edirdi. Hal-hazırda isə gecəyarısına kimi işləmiş maşinist metropoliten tərəfindən ayrılan nəqliyyat vasitəsi ilə yaşadığı mənzilinə çatdırılır. Həmin şəxs işə bir gün sonra gündüz növbəsinə gəlir və belə olduğu təqdirdə maşinistin normal istirahəti tam təmin edilir. Əvvəlki qrafikdən fərqli olaraq hazırda tətbiq edilən qrafikdə növbələrarası istirahət vaxtı 12-38 saat olur. Əlavə olaraq qeyd etmək lazımdır ki, maşinistlərin gecələməsi üçün metropolitendə qonaq otaqlarının və ya kirayəyə götürülmüş mənzillərin saxlanılması, yataq dəstlərinin alınması, səhər yeməyinin verilməsi və s. ilə bağlı böyük məsrəflər yeni qrafikə keçidlə aradan qalxmışdır. Başqa sözlə, yeni qrafikin tətbiqi ilə həm maşinistlərin normal istirahəti təmin edilmiş, həm də kifayət qədər dövlət vəsaitinə qənaət edilmişdir.

"Bakı Metropoliteni" QSC sədrinin 16 sentyabr 2014-cü il tarixli 82 saylı əmrinə əsasən təsis olunmuş "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin struktur bölməsi olan Təlim-Tədris Mərkəzi Əsasnaməsinə müvafiq olaraq müəssisə əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi, ixtisaslarının artırılması və yenidən hazırlanması işini həyata keçirir. Səhmdar cəmiyyətin ayrı-ayrı xidmətlərinin təqdimatları əsasında kifayət qədər iş təcrübəsi və peşə səriştəsi olmayan işçilər üçün güclü təlim bazası olan müəssisənin Təlim-Tədris Mərkəzində qeyd olunan təyinatla heç bir ödəniş tələb olunmadan qısamüddətli ixtisasartırma kursları təşkil edilir. Bu kurslara cəlb olunmuş işçilərə müəssisənin metropoliten sahəsində böyük təcrübə və elmi potensiala malik aparıcı mütəxəssisləri mərkəz tərəfindən təsdiq olunmuş tədris planı əsasında təlimlər keçir. Təlimin yekununda əməkdaşların əldə etdiyi biliklərinin səviyyəsini müəyyən etmək üçün Tədris Mərkəzində insan müdaxiləsini istisna edən tam obyektiv əsaslarla kompüter test sınaqları həyata keçirilir ki, bu sınaqların nəticələri protokollaşdırılaraq rəsmi qaydada əməkdaşlara elan edilir.

Dünya təcrübəsinə uyğun olaraq Təlim-Tədris Mərkəzində təşkil edilən maşinist hazırlığına gəlincə bu praktika hazırda Moskva, İstanbul və digər şəhərlərin metropolitenlərində geniş tətbiq edilir. Kurslar maşinist üçün tələb olunan praktiki və nəzəri bilikləri əhatə etməklə keçirilir. Kursa cəlb edilən şəxslər mütəxəssislər tərəfindən praktiki və nəzəri yoxlamalardan keçirilir. Həmin şəxslərə nəzəri biliklərlə yanaşı praktiki vərdişlər də aşılanır.

Əvvəlki illərdə maşinist hazırlığı uzun bir proses olmaqla hərəkət qatarlarının təmirinə də öz mənfi təsirini göstərirdi. Belə ki, əvvəlki təcrübədə hər hansı bir şəxsin maşinist olması üçün onun ilk öncə bir il çilingər işləməsi, daha sonra ən azı bir il maşinist köməkçisi olması tələb olunurdu:

- Çilingər olduğu müddət ərzində işçi işdən ayrılmadan ilk öncə üç aylıq müddəti əhatə edən maşinist köməkçisi üçün hazırlıq kurslarına cəlb edilirdi;
- Maşinist köməkçisi olan işçi isə altı aylıq maşinist hazırlığı kurslarına cəlb edilirdi.

Göründüyü kimi ən yaxşı halda bir maşinistin hazırlanması üçün üç ilə yaxın müddət tələb olunurdu. Bu üç il ərzində daim hərəkət qatarlarının təmiri üzrə təcrübə toplamış potensiallı çilingərlər maşinist kurslarını keçərək maşinist olur, onların yeri isə bu sahədə təcrübəsi olmayan işçilərin işə qəbul edilməsi ilə doldurulurdu.

Bir çox ölkələrin metropolitenlərinin təcrübəsi öyrənilərkən yuxarıda qeyd edilən prosesin mənfi xüsusiyyətləri aşkarlanmışdır. Maşinistlərin birbaşa çilingərlərdən hazırlanması:

- Hərəkət qatarlarının təmiri üzrə çilingər, usta və mühəndis kimi kadrların hazırlanmasına mənfi təsir göstərməsinə;
- Maşinistin altı ay ərzində hazırlanması mümkün olduğu halda, bu prosesin üç il davam etməsinə;
- Maşinist köməkçisi üçün tələb olunan biliklər az olduğu üçün maşinist köməkçisi kursunu keçib daha sonra maşinist hazırlığı kursunu keçə bilməyən maşinist köməkçilərinin daim həmin vəzifədə qalmasına (20 il maşinist köməkçisi işləyən işçilərimiz var. Maşinist köməkçisi ştatları ləğv edilərkən başqa peşələrə keçirilmişlər);
- Həmin dövrlərdən maşinist çatışmazlığına, maşinistlərə nə texniki, nə də adi əvəzləmələrin verilməsinin mümkünsüzlüyünə səbəb olurdu.

Bir sıra metropolitenlərin təcrübəsi öyrənildikdən sonra maşinist köməkçisi kursunu bitirərək otra-ixtisas təhsili almış, lakin maşinist köməkçisi kimi çalışmayan çilingərlər maşinist hazırlığı kurslarına cəlb edilmişlər. Maşinist hazırlığı kursunu bitirən çilingərlərin nəzəri və praktiki bilikləri yoxlanıldıqdan sonra onlar maşinist vəzifəsinə layiq görülüblər. Onlar bu günə kimi heç bir xəta törətmədən və qəza halı yaratmadan qatarı idarə edirlər. Çilingərlərin maşinist köməkçisi kimi çalışmadan altı ay ərzində maşinist adını qazanması və qatarı digər maşinistlər kimi idarə edə bilməsi bu təcrübənin uğurlu olduğunun göstəricisidir. Bunu nəzərə alaraq bu təcrübənin digər metropolitenlərdə olduğu kimi, Bakı Metropolitenində də davam etdirilməsinə qərar verildi.

Bakı Metropoliteni üçün alınacaq qatarların dördüncü nəslə aid olduğunu və onların çoxfunksiyalı idarəetmə sistemini və daha çox elektron avadanlıqlarla təchiz edildiyini nəzərə alaraq onları idarə edən şəxslərin ali və orta texniki biliyə malik olması zərurətindən metropoliten işçisi olmayan şəxslər (xüsusilə ali və orta texniki təhsilli şəxslərə üstünlük verilib) üç mərhələdən ibarət müsahibələrdən keçərək altı aylıq maşinist hazırlığı kurslarına dəvət olunmuşlar. Yeni nəsil qatarları idarə edəcək şəxslər texniki biliklərə sahib olduqları üçün köhnə üsulla deyil, yeni və artıq dünya praktikasında uğurla sınaqdan keçmiş üsulla seçilərək onların hazırlanması proseslərinə başlanılmışdır. Ali və orta texniki təhsilə malik olan təcrübəçilər maşinist hazırlığı kursunun nəzəri hissəsində dördüncü nəsil qatarlarla bağlı biliklərini artırıb bu mərhələni uğurla başa vurduqları üçün hazırda qatarı idarəetmə vərdişlərinə yiyələnirlər.

Əvvəlki təcrübədə maşinist hazırlığı kursunun altı ay olmasına baxmayaraq dərs saatları az idi. Hazırda isə maşinist hazırlığı kursunun altı ay olmasına baxmayaraq dərs saatları daha çoxdur və daha geniş informasiyanı əhatə edir. Çünki əvvəlki təcrübədə işçimiz olan çilingər və ya maşinist köməkçisi işdən sonra bir - iki saat davam edən dərslərə gəlirdisə, hazırda təcrübəçilər bütün günü dərslərdə və maşinistlərlə yürüşlərdə iştirak edirlər. Bu da onların həm nəzəri bilikləri, həm də praktiki vərdişləri qısa zamanda əldə etməsinə şərait yaradır. Yeni nəsil qatarlardan istifadə edilən İstanbul metropolitenində üç aya, Moskva və Novorossiysk metropolitenlərində isə altı aya metropoliten işçisi olmayan xüsusilə ali və orta texniki təhsilli şəxslərdən maşinist hazırlanır. Adları qeyd edilən və edilməyən bir çox metropolitenlərin təcrübələrindən yararlanma həmin təcrübənin doğru və sınanmış olduğunun göstəricisidir.

Əvvəlki iş cədvəlindən fərqli olaraq optimallaşdırılmış yeni iş cədvəlinə keçilməsi ilə əlaqədar maşinistlərin iş rejimi dörd növbəli olduğu üçün əvvəlcədən maşinistlərə fərdi iş cədvəlinin verilməsinə də artıq lüzum qalmamışdır.

Yeni qrafikə keçidlə əlaqədar elektrik hərəkət qatarlarının maşinistlərinin tək işləməsi haqqında yeni layihə ilə bağlı işlər artıq yekunlaşmış, "Metropolitenin elektrik qatarlarının idarəedilməsi hüququna dair sınaqların keçirilməsi, şəhadətnamələrin və ixtisas dərəcələrinin verilməsi qaydaları haqqında Təlimat" yenidən hazırlanmışdır.

Qatarları idarə edən maşinistlər naryad üzrə işə başlamazdan əvvəl videomüşahidənin aparıldığı tibb məntəqəsində həkim nəzarətindən keçir və onlara çek verilir. Çekdə maşinistin həkim nəzarətindən keçilməsinin tarixi və vaxtı, qan təzyiqi, ürəyin arterial təzyiqi, ürək döyüntüsü, oksigen çatışmazlığının yoxlanılması, bədən hərarəti, alkotestlə yoxlama cavabı qeyd olunur. Verilmiş çek maşinistlərin fərdi kitabçasına tikilir və fərdi kitabçalar tibb məntəqəsində saxlanılır. Ümumiyyətlə, metropolitenin elektrik və təsərrüfat qatarlarını idarə edən maşinistlərin reysqabağı tibbi müayinələrinin yüksək peşəkarlıq səviyyəsində və dəqiqliklə həyata keçirilməsi üçün tibbi müayinələrin icra edildiyi bütün xətti məntəqələr çoxfunksiyalı diaqnostik əməliyyatları həssaslıqla yerinə yetirən "Bionet BM 7" müasir tibb avadanlıqları və peşəkar alkotestlərlə təchiz edilmişlər. Bu prosedurları həyata keçirmək məqsədilə Səhiyyə Nazirliyinin tibb personalı ilə müvafiq treninqlər keçirilib. Bu avadanlıqların köməyi ilə qatarları idarə edən maşinistlərin qan təzyiqi, bədən hərarəti, orqanizmdə alkoqolun səviyyəsi, ürək döyüntülərinin xarakteristikası dəqiq müəyyən edilir. Hər hesabat dövrü üçün hər bir maşinistin sağlamlıq durumu serverə daxil edilərək arxivləşdirilir, onları mütəmadi olaraq elektron məlumat bazasında izləmək və müqayisəli şəkildə təhlillər aparmaq imkanı yaradılır.

"Bakı Metropoliteni" QSC-nin bütün aidiyyəti idarəetmə strukturlarının fəaliyyəti qanunvericiliyin tələblərinə uyğun qurulmuş, işçilər işə götürülərkən, onlarla bağlanmış əmək müqaviləsinə xitam verilərkən və digər hallarda qanunvericiliyin tələblərinə ciddi riayət edilir. İstər metropolitendə çalışan işçilərin, istərsə də kənar şəxslərin "Bakı Metropoliteni" QSC-yə ünvanlanmış müraciətinə və ya şikayətinə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun baxılır, Əmək Məcəlləsi və digər sahəvi qanunvericilik aktları, həmçinin kollektiv müqavilə ilə nəzərdə tutulmuş hüquqları təmin edilir.

"Bakı Metropoliteni" QSC-də istənilən şəxsin təklifləri dəyərləndirilir, tənqidlərə açıq mövqe və obyektiv yanaşma nümayiş etdirilir. Mükafatların azaldılması, aşağı vəzifəyə keçirilmə halları yalnız qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir və bu, heç bir halda hər hansı şəxsin hüquq və azadlıqlarından irəli gələn hərəkətlərinə görə qisas almaq motivi daşımır. Əmək Məcəlləsində, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 sentyabr 1995-ci il tarixli 198 saylı qərarı ilə təsdiq edilmiş "Bakı Metropoliteni" QSC işçilərinin əmək intizamı haqqında Nizamnaməsində nəzərdə tutulan sərt intizam tənbehləri bir çox hallarda əvvəlki tədbirlərdən nəticə çıxarmayan şəxslərin barəsində tətbiq edilir və bu zaman qeyd edilən hüquqi aktların tələblərinə ciddi riayət olunur.

Həm maşinistlər, həm də digər xidmətlərin əməkdaşları hər həftənin bazar ertəsi günü "N.Nərimanov" Elektrik Deposunda istismar sahəsində aparılan işlərlə bağlı keçirilən müşavirədən sonra, o cümlədən baş ofisdə Səhmdar Cəmiyyətin sədri tərəfindən qəbul edilirlər. "Bakı Metropoliteni" QSC-də istər istismar, istər tikinti sektoru sahəsində aparılan işlərlə əlaqədar həftənin bazar ertəsi (istismar sahəsi) və cümə (tikinti sahəsi) günləri səhmdar cəmiyyətin sədrinin birbaşa sədrliyi ilə aidiyyəti qurumların rəhbər şəxslərinin iştirakı ilə geniş tərkibdə müntəzəm iclaslar keçirilərək protokollaşdırılır. Bununla bağlı məlumat müntəzəm olaraq müəssisənin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən səhmdar cəmiyyətin rəsmi internet saytının bazasında yaradılmış elektron portala yerləşdirilir.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti əhəmiyyətli sosial layihələrin də iştirakçısı kimi ölkənin sosial-ictimai həyatında öz rolunu artırmaqdadır. "Bakı Metropoliteni" QSC yaradıldıqdan sonra metropoliten əsl sosial layihələr meydanına çevrilib. Bu layihələr ictimaiyyət arasında xüsusi rəğbətlə qarşılanır və ildənilə bu sahədə sərhədlər genişlənir. 2018-ci ilin sentyabr ayında elan edilmiş Bakı Metropoliteni tarixinin ən əhəmiyyətli və genişmiqyaslı sosial layihəsinin həyata keçirilməsi istiqamətində atılmış mühüm addımların məntiqi nəticəsi olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti arasında 14 mart 2019-cu il tarixində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Memorandumda metropolitenin əlilliyi olan şəxslərlə bağlı həyata keçirəcəyi "Müyəssər Metro" adlı sosial xarakterli layihənin icrası, əlilliyi olan şəxslərin metrodan rahat və maneəsiz istifadəsi ilə bağlı digər layihələrin hazırlanması və həyata keçirilməsi, nazirliyin hazırladığı sosial xarakterli reklam və təşviqat materiallarının metropoliten ərazisində əvəzsiz olaraq yayımlanması kimi əməkdaşlıq istiqamətləri öz əksini tapmışdır. Bu layihəyə əsasən əlillərin və sağlamlığı məhdud insanların metropolitendən təhlükəsiz və rahat istifadə imkanları artırılmaqla nəqliyyatın bu növündən istifadədə onların imkanlarını məhdudlaşdıran maneələr tam aradan qaldırılacaqdır.

Azərbaycanın paytaxtı Bakı şəhərini bu gün metropolitensiz təsəvvür etmək olmur. İctimai sərnişin daşıma nəqliyyatı sistemləri arasında özünəməxsus yeri olan metropoliten şəhər tıxaclarında bir nəfəslikdir, sərnişinləri mənzil başına sürətlə, vaxtında və təhlükəsiz çatdıran unikal bir vasitədir.

Bakı Metropoliteni Azərbaycan xalqının çoxəsrlik tarixində nadir bir sərvətdir. Ümummilli lider Heydər Əliyevin *"Metro bizim müstəqil dövlətimizə keçmişdən çatmış mirasdır. Biz bunu qorumalıyıq, saxlamalıyıq, inkişaf etdirməliyik. Bu, bizim hamımızın vəzifəsidir"* kəlamı metronun hər birimiz üçün nə qədər dəyərli olmasını ifadə edən ən gözəl meyardır.

***B.MƏHƏRRƏMOĞLU,***
***"Azərbaycan"***

# Enerji və nəqliyyat layihələrinin qlobal təhlükəsizlik üçün böyük əhəmiyyəti var

## VII Qlobal Bakı Forumunda bu, bir daha vurğulanıb

Siyasi səylər, uğurlu xarici siyasət olmadan qlobal layihələrin gerçəkləşməsi mümkün olmazdı. Eləcə də qlobal təhlükəsizlik üçün mühüm layihələrin, məsələn, nəqliyyat, enerji layihələrinin həyata keçirilməsi vacibdir. VII Qlobal Bakı Forumundakı çıxışlar, tədbir çərçivəsində keçirilən görüşlər və aparılan söhbətlərdə bu, bir daha vurğulandı.



Azərbaycanın regional nəqliyyat mərkəzinə çevrilməsi ilə bağlı bir neçə il əvvəlki hədəfləri müsbət nəticələr verib. 2017-ci ildə Gürcüstandan keçməklə Azərbaycan və Türkiyə arasında dəmir yolu xəttinin açılışı oldu, Avropa və Asiya dəmir yolları birləşdi. İndi Azərbaycan "Şərq-Qərb nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. Ötən il Ələtdə Beynəlxalq Dəniz Limanının açılışı bu nəqliyyat şəbəkəsini daha bir elementlə tamamladı.

Prezident İlham Əliyev forumdakı nitqində bu barədə demişdir: "Biz artıq Asiya ölkələrindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik. Biz bu yaxınlarda artıq Əfqanıstanın təbliğ etdiyi Lapis-Lazuli dəmiz yolu və Şərq-Qərb dəhlizi ilə fiziki əlaqə əldə etdik. Biz artıq yeni mənbələrdən yüklər qəbul edirik. Bu, təkcə iqtisadi mənfəət deyil, həm də ölkələr arasında əlaqə, qarşılıqlı bağlılıq və yaxın əməkdaşlıq deməkdir. Beləliklə, nəqliyyat sahəsi beynəlxalq əlaqələrin mühüm sektorudur və o, çox yaxşı tərəfdaşlıq ruhu yaradır".

Qlobal təhlükəsizliyin təmin olunmasında enerji sektoru da vacib əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq formatı yaradıb. Dünyanın tanınmış enerji şirkətləri ilə birgə layihələr bütün regiona xeyir-bərəkət gətirir. Onlar həyata keçirilərkən istər Azərbaycanda, istərsə də qonşu ölkələrdə minlərlə iş yeri açılır.

Azərbaycan neftini ixrac edən kəmərlər Xəzəri Qara dənizlə və Aralıq dənizi ilə birləşdirdi. Hazırda Azərbaycan qazını Avropaya çatdıracaq "Cənub qaz dəhlizi" layihəsi tamamlanmaq üzrədir. Layihənin üç seqmenti artıq işə düşüb. "Şahdəniz-2" yatağından Türkiyəyə indiyədək 1 milyard kubmetrdən çox qaz ötürülüb.

Qaz istehsalı və nəqlinə yatırılmış investisiyaların ümumi həcmi 40 milyard dollara yaxındır. Hazırda "Cənub qaz dəhlizi" layihəsində 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Planlar isə bugünkü formatın hüdudlarından da kənara çıxır. Belə ki, Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro kimi Balkan ölkələri ilə anlaşma memorandumu imzalanıb. Növbəti mərhələdə bu ölkələrlə də fəal əməkdaşlığa başlanacaq. Bolqarıstanın Baş naziri Boyko Borisov forumdakı çıxışında bu məsələyə toxunmuşdur: "Bu dəhlizlə nəql olunan qazın bir hissəsinin məhz Bolqarıstanda qalmasında çox maraqlıyıq. Düşünürük ki, Azərbaycan qazı Bolqarıstanın iqtisadiyyatının çiçəklənməsinə töhfə verəcək. Bolqarıstan-Türkiyə-Bosniya və Herseqovina-Monteneqro arasında münasibətləri xüsusi qeyd etmək istərdim. Biz bunu "Balkan qovşağı" adlandırırıq. Beləliklə, bizim kifayət qədər müştərək planlarımız mövcuddur".

Forumun işində iştirak edən Albaniya Prezidenti İlir Meta Prezident İlham Əliyevlə görüşündə "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan Transadriatik Qaz Boru Kəmərinin çəkilişinin uğurla getdiyini təsdiq etdi. O, həmçinin Azərbaycanla müxtəlif sahələrdə, xüsusilə turizm sahəsində əlaqələrin genişləndirilməsində, eləcə də Azərbaycanın Albaniyada daxili qazlaşdırma sisteminin yaradılmasında ölkəsinin maraqlı olduğunu bildirdi.

Prezident İlham Əliyevin Monteneqro Prezidenti Milo Çukanoviçlə də görüşü olub. Dövlət başçısı "Cənub qaz dəhlizi" Məşvərət Şurasının keçən ay Bakıda keçirilən toplantısında Monteneqronun iştirakının təqdirəlayiq olduğunu, bu layihələrin həyata keçirilməsinin iki ölkəni bir-birinə daha da yaxınlaşdıracağını qeyd edib. Görüşdə Azərbaycan və Monteneqro arasında turizm, nəqliyyat, qaz sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük imkan və perspektivlərin olduğu vurğulanıb.

Forumun işə başladığı gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani arasında təkbətək görüş də olub. Əfqanıstanın dövlət başçısı əlaqələrin inkişafı baxımından enerji, nəqliyyat, tikinti, iqtisadiyyat, ticarət, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın vacibliyinə toxunub. Bu sahələrdə əlaqələrin inkişafı üçün böyük perspektivlərin olduğu qeyd edilib. Həmin gün eləcə də Azərbaycan və Əfqanıstan arasında dəmir yolları, informasiya və kommunikasiya, mədəniyyət sahələrində əməkdaşlıq haqqında sənədlər imzalanıb.

VII Qlobal Bakı Forumu bir daha göstərdi ki, Azərbaycanın xarici siyasəti müstəqildir və milli maraqlara əsaslanır. Bu, iqtisadi inkişafa da stimul yaradır. Təsadüfi deyil ki, son 15 ildə ölkə iqtisadiyyatı dinamik inkişaf edir. Əsas infrastruktur layihələri tamamlanıb, maliyyə vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb. Xarici borcların səviyyəsi çox aşağıdır. Ehtiyatlar borcdan dörd-beş dəfə çoxdur. Beləliklə, Azərbaycanın maliyyə sabitliyi, iqtisadi inkişafı ölkəmiz üçün yeni üfüqlər açmaqla bərabər, qonşu ölkələrə də sərmayə yatırmağa, yeni-yeni əməkdaşlıq körpüləri salmağa imkan verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# 2 ayda ÜDM 3 faiz artıb

Cari ilin yanvar-fevral aylarında ölkədə 11 milyard 484,5 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ÜDM istehsalının 47,2 faizi sənayenin, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,4 faizi tikintinin, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitənin, 15,7 faizi digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər isə ÜDM-in 7,2 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 1163,8 manata bərabər olmuşdur.

# İsrail televiziyası Azərbaycan startapları və innovasiya ekosistemi barədə reportaj hazırlayıb

Yüksək Texnologiyalar Parkı
AZƏRBAYCAN

İsrailin "Kanal 9" televiziyası Azərbaycan startapları və innovasiya ekosistemi barədə reportaj təqdim edib.

Yüksək Texnologiyalar Parkından bildiriblər ki, reportaj Azərbaycan startapları və innovasiya ekosisteminin nümayəndələrinin "İsrail İnnovasiya Mübadilə Proqramı" çərçivəsində Qüds şəhərində keçirilən "2019 OurCrowd Global Investors Summit" konfransında iştirakına həsr olunub. "2019 OurCrowd Global Investors Summit" konfransı "İsrail İnnovasiya Mübadilə Proqramı" çərçivəsində keçirilib.

Reportajda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Yüksək Texnologiyalar Parkının direktoru Tural Kərimlinin İsrailin "Kanal 9" televiziyasına müsahibəsi yer alıb.

Azərbaycanın konfransa böyük nümayəndə heyəti ilə qatıldığını qeyd edən Yüksək Texnologiyalar Parkının direktoru bildirib ki, konfrans zamanı dünyanın müxtəlif ölkələrindən olan startaplar, investorlar, aparıcı inkubasiya və akselerasiya mərkəzləri və vençur fondları ilə görüşlər keçirilib. T.Kərimli Yüksək Texnologiyalar Parkının fəaliyyəti barədə danışıb və azərbaycanlı startapçıların konfransda təqdim etdiyi startap layihələri barədə ətraflı məlumat verib.

# Qazaxıstan neftinin Azərbaycan üzərindən tranziti imkanları müzakirə edilib



Azərbaycanın energetika naziri Pərviz Şahbazov qazaxıstanlı həmkarı Kanat Bozumbayevlə görüşüb.

Bakının neft sənayesinin beşiyi olduğunu xatırladan Pərviz Şahbazov bir əvvəl OPEC baş katibinin ölkəmizə səfəri zamanı irəli sürülən "OPEC plus" tədbirlərindən birinin Bakıda keçirilməsi təklifinin reallaşmasını Azərbaycanın bu format çərçivəsində roluna diqqətin göstəricisi hesab etdiyini vurğulayıb.

Görüşdə hər iki ölkənin yeni "Əməkdaşlıq Bəyannaməsi" çərçivəsində götürdükləri öhdəliklərin icra səviyyəsi, qlobal enerji bazarının vəziyyəti və Azərbaycan-Qazaxıstan ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiya çərçivəsində görülən işlər ətrafında müzakirələr aparılıb.

Kanat Bozumbayev "Kaşaqan", "Tengiz" və digər yataqların işlənməsi, yaxın gələcəkdə əlavə həcmlərin dünya bazarına nəqli üçün nəzərdən keçirilən marşrutlar barədə fikirlərini bölüşüb. Qazaxıstanın neft və neft məhsullarının Azərbaycan üzərindən tranziti və mayeləşdirilmiş təbii qazın (LNG) Xəzər dənizi vasitəsilə Azərbaycana çatdırılması və nəqli ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb.

Kanat Bozumbayev Azərbaycanın energetika nazirini 2019-cu ilin sentyabrında Astanada keçiriləcək "Qazaxıstan enerji həftəsi"nə dəvət edib.



# Su həm də bərəkətdir

Son dövrlər aparılan islahatlar, maliyyə və texniki təminatın yüksəldilməsi sayəsində aqrar sektorda məhsuldarlıq ildən-ilə yüksəlir. Elə məhsullar var ki, bu hesaba onların istehsalı hətta dəfələrlə artıb. Pambıq, fındıq, barama, xurma, tütün və digər məhsullar ölkənin daxili tələbatını ödəməklə yanaşı, ixrac da olunur.

Məhsuldarlığın artmasına səbəb olan əsas amillərdən biri su ilə təminatdır. Amma məlumdur ki, Azərbaycanda su ehtiyatları məhduddur. Buna baxmayaraq, ərzaq təhlükəsizliyinin təmin edilməsi və ixracda kənd təsərrüfatı məhsullarının çəkisinin artırılması üçün yeni əkin sahələri dövriyyəyə daxil edilməli və həmin ərazilərin su təminatını yaratmaq üçün meliorativ tədbirlər görülməlidir. Ölkəmizin su təhlükəsizliyinin təminatında mühüm rol oynayan Taxtakörpü və Şəmkirçay kimi iri su anbarlarının tikilməsi məhz bu zərurətdən irəli gəlmişdir. Həmin su anbarlarında toplanan su müxtəlif məqsədlər üçün istifadəçilərin ixtiyarına verilmişdir.

Taxtakörpü su anbarı zonasında Xızı, Siyəzən və Şabran rayonlarında suvarma suyu ilə təmin edilən 22 min hektardan çox torpaqlar aqroparklar və iri təsərrüfatlar tərəfindən əkin dövriyyəsinə cəlb edilib. Ötən il Şabran rayonunda 12 min hektar sahədə meliorativ işlər görülüb. "Şabran Aqroparkı"na məxsus 1738 hektar torpaq sahəsinin su təminatı yaxşılaşıb. Xızı rayonunda 436 hektar sahədə salınan zeytun və badam bağlarının suvarma suyu ilə təmin edilməsi problemi də aradan qalxır.

Şəmkirçay su anbarının tikintisi ölkəmizin qərb bölgəsində əkin sahələrinin suvarma və əhalinin içməli su təminatında mühüm rol oynayır. Həmin su anbarı istifadəyə verildikdən sonra min hektarlarla əkin sahəsi su ilə təmin edilib. Goranboy və Samux rayonları ərazisində yaradılan aqroparklara məxsus torpaq sahələrinə suvarma suyunun verilməsi üçün boru kəmərlərinin və su hovuzunun tikintisi də başa çatdırılıb.

Ötən il meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının yaxşılaşdırılması, həmçinin sel və daşqın sularına qarşı mübarizə tədbirləri çərçivəsində bir çox işlər görülüb. Kür, Araz və onlara qovuşan dağ çayları boyunca salınan torpaq mühafizə bəndlərinin 133 kilometrlik hissəsində möhkəmləndirmə işləri görülərək 3890 kubmetr həcmində daş və beton məmulatları ilə sahilbərkitmə işləri yerinə yetirilib, suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 62 milyon kubmetr həcmində lildən təmizləmə işləri aparılıb, 5837 hidrotexniki qurğu, 5203 subartezian quyusu, 276 nasos stansiyası təmir edilib.

Bunlardan əlavə, daşqınların qarşısını almaq üçün çay məcralarında 17,2 milyon kubmetr həcmində məcratəmizləmə işləri aparılıb, 10,3 min kubmetr şax-daş və faşın, 2,9 min kubmetr qabion bəndlər quraşdırılıb və daş-beton bəndlərdə 18,4 min kubmetr həcmində təmir işləri yerinə yetirilib.

Cəbhəyanı ərazilərin də su ilə təminatı dövlətin diqqət mərkəzindədir. Ötən il Cəbrayıl rayonunun Cocuq Mərcanlı və Füzuli rayonunun Mirzənağılı kəndlərinin 680 hektar əkin sahəsinə Araz çayından suyun verilməsi təmin edilib. Bununla da illərlə susuz qalan torpaqlara su verilib, əkin sahələrinin ərazisi genişlənib, məhsuldarlıq artıb.

Ölkədə su mənbələrinin azlığından çıxış yolu kimi artezian quyuları da qazılır. Təkcə ötən il 38 şəhər və rayonun 248 yaşayış məntəqəsindəki 8740 hektar əkin sahələrinin suya olan tələbatının ödənilməsi üçün 300 artezian quyusu qazılaraq istismara verilib. Cari ildə isə Ağdam rayonunun 20 yaşayış məntəqəsində 35 subartezian quyusunun qazılmasına başlanılıb. Bu, əhalisi 26,2 min nəfər olan 20 yaşayış məntəqəsində 1050 hektar əkin sahəsinin suvarma suyu ilə təminatını yaxşılaşdıracaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# "Qlobal neft tədarükünün səviyyəsini normallaşdırmaq əsas məqsədlərdəndir"




AZƏRTAC xəbər verir ki, bu sözləri Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz əl-Falih martın 18-də Bakıda keçirilən OPEC və qeyri-OPEC ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) 13-cü iclasında deyib.

O bildirib ki, ötən il qlobal neft bazarında balansın formalaşdırılması üçün mühüm addımlar atıldı. Bu gün neftin qiymətinin məqbul səviyyədə olması OPEC və OPEC+ formatında əməkdaşlığın bəhrəsidir.

"Bugünkü iclasın neftin vətənində, Bakıda keçirilməsi çox əlamətdardır. Hazrda Azərbaycan OPEC+ formatında əməkdaşlığın fəal iştirakçısıdır", - deyə nazir vurğulayıb.

# İqtisadi sektorda işləyənlərin sayı 1,5 milyon nəfərdən çoxdur

## Onların orta aylıq əməkhaqqı 560 manata yaxındır

Bu il fevralın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1 faiz artaraq 1 milyon 523,8 min nəfər olmuşdur. Onlardan 862,8 min nəfəri iqtisadiyyatın dövlət, 661 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.



Dövlət Statistika Komitəsindən bildirmişlər ki, muzdla işləyənlərin 21,9 faizi təhsil, 18,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,1 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,6 faizi tikinti, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 10,8 faizi iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

İlin ilk ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,2 faiz artaraq 557,2 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Elektrik təchizatı şəbəkələrinə qoşulmaq üçün yeni qaydalar tətbiq olunacaq

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "Azərişıq" ASC ilə birlikdə elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə yeni qaydalar və elektron müraciət sisteminin təqdimatını keçirib.



Tədbirdə "Sahibkarların mövcud və inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" fərmana uyğun olaraq, bu sahədə bir sıra işlər görüldüyü və ümumi proseslərin sadələşdirildiyi deyilib.

Qeyd edilib ki, həmçinin sahibkarlara elektrik enerjisi və qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma üzrə texniki şərtlərin və layihə sənədlərinin hazırlanması və verilməsi imkanları yaradılıb. Sonrakı mərhələdə isə fiziki qoşulmanın təmini məqsədilə müraciətlərin kiçik və orta biznes evlərində və "ASAN Kommunal" mərkəzlərində edilməsi üçün şərait mövcuddur.

# Rusiyalı turistləri valeh edən Bakı

Ümumdünya Turizm Təşkilatının reytinq cədvəlində Azərbaycanda turizmin inkişaf dinamikası 20 faiz səviyyəsində qiymətləndirilmiş və Avropa ölkələri arasında 7-ci yerə layiq görülmüşdür. Həm də bu səbəbdən ölkəmizə ötən il təkcə Rusiyadan gələn turistlərin sayı 800 mini keçmişdir. Bu rəqəm əvvəlki ildəkindən xeyli artıqdır.



Əlaqələrimizdən istifadə edib Moskvaya telefon açıb, Azərbaycana vaxtaşırı qonaq gələn ruslarla danışdıq. İrina Mojayeva dedi ki, onun ən yaxın dostları vaxtilə Moskvada bir yerdə oxuduqları azərbaycanlı tələbələrdir: "Onlar sizin ümummilli lideriniz Heydər Əliyevin kadrları idi. Aradan yarım əsrə yaxın vaxt keçsə də, münasibətlərimiz qırılmır, onlar mənə ən yaxın qohum qədər doğmadırlar. Bakı isə yaddaşımda doğma xatirələrlə qalıb. Atamla anam İkinci Dünya müharibəsindən əvvəl orada yaşayıblar. Həmişə də evimizdə masa arxasında əyləşəndə atam anama azərbaycansayağı zarafatyana deyərdi: "Arvad, kişi danışanda kiri və qulaq as!" Sonuncu dəfə Bakıya gələndə azərbaycanlı dostlarımın ailəsində oldum, fərqli ər-arvad münasibətlərini gördüm. Sizdə ailələr bizdəki qədər çox dağılmır, valideynlər uşaqlarına zəncir kimi bağlıdırlar. Biz sizin paytaxtı bənzərsiz, müasir, insanlarınızı isə üzügülər, mehriban kimi tanıyırıq. Xahiş edirəm ki, sevdiyim, vurulduğum, aludə olduğum şəhərə mənim salamlarımı çatdırasınız".

Moskvalı yazıçı Vitali Abramov da Bakıda dəfələrlə olub. Hətta həyat yoldaşının ad gününü keçirməyə Azərbaycana gəlmişdi. Həyat yoldaşı Lena dedi ki, Qafqaz əsrarəngizdir, Avropadan da üstündür: "Keçən il ad günümü Vyanada keçirdik, yağış əlindən şəhərə çıxa bilmədik, heç nə də görmədim. Azərbaycanda isə tamam fərqli doğum günü qeyd etdik".

Tanıdığım moskvalı jurnalistlərdən Liliya Militskaya, Svetlana və Tanya Çeçilovalar da Bakıda, Qubada, Qobustan və Şamaxıda gördüklərini heç vaxt unudan deyillər.

Soyuq mart axşamı paytaxta çıxdıq. Hələ turist mövsümü olmasa da, əcnəbilər az-çox gözə dəyirdilər. Dənizkənarı parkda Novosibirskdən gələn ailə ilə tanış olduq. Oleq özünü ailənin başçısı kimi təqdim etdi:

- Biz bahara qonaq gəlmişik, iki həftə qalasıyıq. Qışdan bahara, şimaldan cənuba düşmək maraqlıdır. Yəqin bir həftəyə tumurcuqlayan ağaclar çiçək açacaq, yarpaqlayacaqlar. Şəhərinizdən yüksək zövq alırıq.

*Bahadur İMANQULİYEV,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*



# Ermənistanda ciddi təşviş

## Samvel BABAYAN: "Biz təcili müharibəyə hazırlaşmalıyıq. Yoxsa Azərbaycan bizi 5 günə məhv edəcək"

*Azərbaycanın sürətli inkişaf nəticəsində daha güclü dövlət halına gəlməsi və buna paralel olaraq ordusunun döyüş qabiliyyətini davamlı olaraq yüksəltməsi Ermənistanda getdikcə daha böyük təşvişə yol açır. Elə bu fonda Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin qətiyyətli mövqeyi qarşısında Yerevan artıq geri çəkilməkdən başqa çıxış yolu olmadığını getdikcə daha aydın surətdə dərk edir. Ermənistanda hesab edirlər ki, yeni hakimiyyət bunlardan ciddi nəticə çıxarmalıdır, əks-təqdirdə, ölkələrini silkələyəcək savaşın başlanması qaçılmaz olacaq.*

Erməni politoloq Qrant Məlik-Şahnazaryan bununla bağlı bildirib: "Yerevanın atdığı addımlar səbəbindən Azərbaycan və Ermənistan arasında müharibə hazırlığı son mərhələdədir". Şahnazaryanın fikrincə, iqtidar Dağlıq Qarabağın danışıqlarda tərəf kimi iştirakında israr etsə, savaş istənilən an başlana bilər: "Bakıda Paşinyanın niyyətini əla anlayırlar. Paşinyan bu hərəkəti ilə öz nüfuzunu yüksəltməyə çalışır. Lakin onun davranışları müharibəyə aparır. Baş verənlər müharibənin başlanması üçün siyasi tarazlığın yarandığını və hazırlıq işlərinin son mərhələsinə daxil olduğunu göstərir. Lakin burada nəzərə almaq lazımdır ki, Azərbaycan hərb müstəvisində bizdən çox irəli gedib".

Elə qondarma "DQR"in sabiq müdafiə naziri Samvel Babayan da eyni mövqedən çıxış edir. Babayan 1in.am portalına verdiyi müsahibəsində ermənilərin təcili müharibəyə hazırlaşmasının vacibliyini bildirib: "Biz təcili müharibəyə hazırlaşmalıyıq. Yoxsa Azərbaycan bizi 5 günə məhv edəcək. Azərbaycan hal-hazırda güclü orduya malikdir. Biz hazırlaşmasaq, aprel faciəsini yenidən yaşayacayıq".

Digər erməni politoloq Aleksandr İskəndəryan da hesab edir ki, yeni hökumətin qəbul edilməyən mövqeyi üzündən Qarabağda 2016-cı ilin "aprel müharibəsi" ssenarisinin təkrar olunacağı istisna deyil: "Genişmiqyaslı müharibə bəlkə də olmayacaq, çünki bu, dağıdıcı nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, münaqişəni müharibə ssenarisi ilə həll etmək çətindir. Çünki regionda müxtəlif güclərin maraqları var. Lakin "aprel müharibəsi" ssenarisinin təkrarlanacağını istisna etmirəm".

Bu açıqlamalardan aydın görünür ki, həyata keçirdiyi işğal siyasəti Ermənistana getdikcə daha çox baha başa gəlməkdədir. Çünki hər keçən gün Ermənistana siyasi, hərbi, iqtisadi, diplomatik müstəvidə daha böyük zərbələr dəyir, işğalçı ölkə daha ağır duruma düşür. O da birmənalı həqiqətdir ki, Ermənistanda Serj Sarkisyan iqtidarının devrilməsində bu amillər, Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti əsas rol oynadı. Aydındır ki, yeni hökumət bundan nəticə çıxarmasa, elə onu da eyni aqibət gözləyir.

Bu ölkədə hakimiyyətdə kimin olmasından asılı olmayaraq, ölkənin düşdüyü təcrid vəziyyətindən xilas olmaq istiqamətində edilən cəhdlər birmənalı şəkildə iflasa uğrayır. Ötən zaman göstərir ki, Ermənistanın işğal siyasətinə son qoymaması və Azərbaycanın ərazi bütövlüyünü tanımadığı təqdirdə onun iflası qaçılmazdır. Çünki Ermənistanın təcriddən xilas olması yalnız Azərbaycandan asılıdır.

Digər tərəfdən xarici dövlətlərin və beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi də Ermənistanın işğal siyasətindən dünyada artan narazılığın real göstəricisidir. Ermənistan bütün diplomatik cəbhələrdə uduzmaqda davam edir. Artıq birmənalı həqiqətdir ki, bu gün Ermənistanın bir dövlət olaraq varlığını davam etdirə bilməsi Azərbaycanla normal münasibətlərin qurulmasından, işğal siyasətindən əl çəkməsindən asılıdır. Əks təqdirdə, Ermənistanın indiki çöküşü davam edəcək, ölkə daha böyük sürətlə tənəzzül girdabına yuvarlanacaq.

Bunu əslində, bütün dünyada, o cümlədən Ermənistanın özündə də kifayət qədər aydın sezirlər. Eyni zamanda işğalçı ölkədə yaxşı başa düşürlər ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsini hərbi müstəvidə həll etsə, onda Ermənistanın özündən belə əsər-əlamət qalmayacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



## Ölkəmizi tanıyaq

# Maarifləndirici tur-aksiya davam edir

Naxçıvan Muxtar Respublikasının orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında paytaxt Bakıya maarifləndirici tur-aksiyası davam edir. Tur-aksiyada Naxçıvan Muxtar Respublikasının bir şəhər və 7 rayonunun orta ümumtəhsil məktəblərindən 160 şagird, 20 müəllim iştirak edir.

Tur-aksiya çərçivəsində şagirdlər martın 17-də Heydər Əliyev Mərkəzində olublar. İştirakçılara dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verilib.

Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi şagirdlərin böyük marağına səbəb olub. Onlar ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində açılmış bu muzeydə "Fotoşəkillərdə əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs, nailiyyətlər" adlı bölmələrində ulu öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri ilə virtual şəkildə məlumatlandırılıblar.

Mərkəzin birinci mərtəbəsində fəaliyyət göstərən "Azərbaycan inciləri" adlı sərgidə şagirdlər Azərbaycan tarixinin bütün dövrlərini, həmçinin mədəniyyətinin müxtəlif sahələrini özündə əks etdirən eksponatlarla tanış oldular.

Mərkəzin "Mini Azərbaycan" sərgisində Bakıda və eləcə də Azərbaycanın digər bölgələrində yerləşən və tarixi-memarlıq əhəmiyyətinə malik 45 binanın maketi sərgilənir. Tur-aksiya iştirakçılarına sərgilənən binaların tarixi və memarlığı haqqında ətraflı məlumat verildi.

Xatırladaq ki, artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən, Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halını alıb.

Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

* * *

Lənkəran, Astara, Lerik, Yardımlı, Neftçala, Şirvan və Zərdab rayonlarını təmsil edən məktəblilərin ölkəmizin şimal bölgəsinə ekskursiyası martın 18-də başa çatıb.

Yeddi rayondan olan 300-ə yaxın şagird "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində Quba və Qusardan sonra Xaçmaz şəhərinin görməli yerləri ilə tanış olublar.

Məktəbliləri Xaçmaz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında rayon icra hakimiyyətinin, regional mədəniyyət idarəsinin,



təhsil şöbəsinin nümayəndələri qarşılayıblar. Şagirdlər burada ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, müasir görünüşünə görə diqqəti cəlb edən Xaçmaz, həm də geniş turizm imkanlarına malikdir.

Qonaqlar şəhərdəki Heydər Əliyev Mərkəzində də olublar. Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, Azərbaycan iqtisadiyyatının ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara və sənədlərə geniş yer verilib. Mərkəzdə əbədiyaşar liderin həyat və fəaliyyətinə dair tarixi sənədlər də nümayiş etdirilir.

Daha sonra məktəblilər Xaçmaz şəhərində Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstləri qoyulan, açıq səma altında yaradılan "Şəxsiyyətlər muzeyi"nə gəliblər. Ekskursiya iştirakçılarına 2006-cı ildə yaradılan muzey-park haqqında ətraflı məlumat verilib.

Tur-aksiya iştirakçıları 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Məktəblilər Xaçmaz Dövlət Rəsm Qalereyası və Bayraq Meydanı Kompleksi ilə də tanış olublar.

Meydan və Çənlibel parklarında gəzintidən sonra məktəblilər ekskursiyalarını başa vuraraq yola salınıblar.

Tur-aksiya iştirakçıları yolüstü "Şabran şəhəri" tarixi qoruğunda olublar. Əsası eramızdan əvvəl I minilliyin ortalarında qoyulduğu ehtimal edilən Şabran şəhərinin qalıqları ilə tanışlıq şagirdlərdə zəngin təəssürat doğurub.

* * *

Şimal-qərb bölgəsinə səyahətə çıxan Gəncə şəhərinin, Gədəbəy, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər (Gəncə), Xocalı (Goranboy) və Tərtər rayonlarının məktəbliləri martın 17-də Qəbələ rayonunun müasir istehsal müəssisələri, tarixi məkanları, turizm və istirahət mərkəzləri ilə tanış olublar.

Tur-aksiya iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzində olub, ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Heydər Əliyev Konqres Mərkəzi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, binanın birinci mərtəbəsində zallar, 350 yerlik restoran və inzibati otaqlar, ikinci mərtəbəsində isə 1200 yerlik çoxfunksiyalı konfrans zalı yerləşir. Bu zal kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir.

Qəbələ konserv zavodunda olan məktəblilərə məlumat verilib ki, burada fəaliyyət göstərən emal müəssisələrində yarımfabrikat dondurulmuş kartof və kartof çipsi, həmçinin sərinləşdirici içkilər istehsal olunur.

Məktəblilərin Qəbələ ilə tanışlığının növbəti ünvanı "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi olub.

Bölgənin ən çox turist qəbul edən bu obyektində hazırda 4 kanat xətti və 10 xizək yolu fəaliyyət göstərir. Kompleksdə turistlərin istirahətinin mənalı təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" hoteli açılıb, dağ-xizək trası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib. Gün ərzində kompleks 3 min nəfərə xidmət göstərə bilir. Dörd kanat xəttinin ümumi uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu isə 17 kilometrdir.

"Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi son illər ölkəmiz üçün yeni idman növü olan xizəkçiliyin gənclər arasında yayılmasına səbəb olub. Kompleksin xizəkçilik mərkəzi həm turizmin inkişafı, həm də yeni dağ idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu məlumatları maraqla dinləyən məktəblilər kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini və ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edib, xatirə şəkli çəkdiriblər.

"Qəbələnd" İstirahət və Əyləncə Mərkəzinə ekskursiya da məktəblilərin ürəyincə olub.

Tur-aksiya iştirakçıları günün ikinci yarısında Nic qəsəbəsindəki "Çotari" alban-udi kilsəsində olublar. Məlumat verilib ki, kilsə qədim abidələrdən biridir. Tolerantlığın kiçik modeli hesab edilən Nic qəsəbəsində üç kilsə və iki məscid var. Altı min əhalisi olan qəsəbədə dörd mindən çox udi yaşayır. Onlar öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Qəsəbədəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur.

Məktəblilərin Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna ekskursiyaları da maraqlı keçib.

Tur-aksiya iştirakçıları şam yeməyindən sonra intellektual yarışlarda öz biliklərini nümayiş etdiriblər.

* * *

300 nəfərə yaxın məktəblinin qədim Quba və Azərbaycanın şimal qapısı sayılan Qusarla tanışlığı davam edir.

Martın 17-də Şirvan, Yardımlı və Zərdab rayon ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Qusarın görməli yerlərini gəziblər.

Məktəblilər Qusar şəhərinin girişindəki Bayraq Meydanında qarşılanıb. Onlara rayon haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Qusar rayonu təkcə təbii gözəllikləri ilə deyil, həm də qədim mədəniyyət abidələri, sənətkarlıq nümunələri ilə də məşhurdur. Yayda gözəlliyi ilə gözoxşayan meşələri, qışda qara bürünmüş dağ və dərələri buraya gələnlərin diqqətini çəkir. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir.

Sonra tur-aksiya iştirakçıları "Şahdağ" Turizm Mərkəzi ilə tanış olublar. Məktəblilərə buradakı hotellər və müxtəlif xidmətlər barədə ətraflı məlumatlar verilib. Tur-aksiya iştirakçıları mərkəzin xidmətlərindən pulsuz yararlanmaq imkanı da qazanıblar.

Məktəblilər günün ikinci yarısında Həzrə kəndində Şeyx Cüneyd türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyinə, olimpiya idman kompleksinə və rəsm qalereyasına ekskursiya ediblər.

Lənkəran, Astara, Lerik və Neftçala rayon ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri isə martın 17-də Qubanın görməli yerlərini gəziblər.

Qədim Qubaya ekskursiya dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədən başlayıb. Şagirdlər qəsəbədə salınan Heydər Əliyev parkını gəzib, eləcə də Qudyalçayın üzərindəki Tağlı körpü ilə tanış olublar.

Qəsəbədəki sinaqoqla tanışlıq zamanı şagirdlərin diqqətinə çatdırılıb ki, uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dağ yəhudilərinin Quba ərazisində yığcam şəkildə məskunlaşmasının tarixi XVIII əsrin ortalarına təsadüf edir. Quba xanlığına Fətəli xanın rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər bura köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub.

Zəngin memarlıq üslubuna malik Cümə məscidi ilə tanışlıq zamanı məktəblilərin diqqətinə çatdırılıb ki, məbəd 1802-ci ildə tikilib. Bu məscid təkcə Qubada deyil, bütün şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.

Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Azərxalça" ASC-nin Quba filialında xalça toxunması prosesini də izləyiblər.

Quba Soyqırımı Memorial Kompleksini ziyarət zamanı tur-aksiyanın iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Bildirilib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Daha sonra məktəblilər Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Quba şəhərindəki "ABAD Factory" İstehsalat Kompleksi ilə yaxından tanış olublar.

Günün ikinci yarısında məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları, həmçinin "Quba Palace" mehmanxana kompleksində və burada yerləşən Qolf Klubunda da olublar.

**AZƏRTAC**


*Təkrar*

## Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə

## *açıq tender elan edir*

**LOT 1:** ARDNF-də informasiya texnologiyalarının idarə edilməsi üzrə audit xidmətinin satın alınması;

**LOT 2:** ARDNF-nin 20 illik yubileyi çərçivəsində malların (işlərin və xidmətlərin) satın alınması üçün təşkilati şirkətin seçilməsi;

**LOT 3:** İnzibati binanın həyətyanı sahəsinin ön hissəsində asfalt örtüyünün yenilənməsi işlərinin satın alınması;

**LOT 4:** İçməli suyun (balon) satın alınması;

**LOT 5:** Server tipli kompüterlər üçün ehtiyat hissələrinin satın alınması;

ARDNF Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 №-li Fərmanı ilə yaradılmış dövlət təsisatıdır. ARDNF barədə məlumatlarla **http://www.oilfund.az** ünvanında yerləşən internet səhifəsində tanış olmaq olar.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq tender ARDNF üçün malların, işlərin və xidmətlərin satın alınmasını əhatə edir.

Tender prosedurları **26 aprel 2019-cu il yerli vaxtla saat 10:00-da,** ARDNF-nin yerləşdiyi Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti,165 ünvanında tender təkliflərinin (zərflərinin) açılması ilə başlanacaqdır.

Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- podratçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- podratçının ixtisas göstəricilərinə dair məlumat;
- tender təklifi (tender təklifinin qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı (bank zəmanəti) ilə birlikdə;
- podratçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı.

Podratçılardan tələb olunan sənədlər **05 aprel 2019-cu il, yerli vaxtla saat 18:00-a** qədər faks, elektron poçt və ya adi poçtla, tender təklifləri isə hər LOT üzrə ayrı-ayrı zərflərdə olmaqla **25 aprel 2019-cu il, yerli vaxtla saat 18:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında yerləşən ARDNF-yə təqdim edilməlidir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

LOT 5 üzrə iştirak haqqı 50 (əlli) manat , LOT 1, LOT 3, LOT 4 üzrə iştirak haqqı 100 (bir yüz) manat və LOT 2 üzrə iştirak haqqı 300 (üç yüz) manat məbləğində müəyyən edilmişdir. Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən podratçılara müvafiq LOT üzrə iştirak haqqı göstərilən hesaba ödənildikdən sonra təqdim ediləcəkdir.

**Azərbaycan Respublikası Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu,**
**Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT BİK: NABZAZ 2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Podratçıların səlahiyyətli nümayəndələri tender təkliflərinin (zərflərin) açılmasında iştirak edə bilərlər.

Tender ilə əlaqədar suallar və sorğular **TSK2019@oilfund.az** ünvanlı elektron poçta və ya (+994 12) 565-87-55 nömrəli faksa göndərilə bilər. Əlaqə telefonu: (+994 12) 498-77-53, əlaqələndirici şəxslər LOT 1 üzrə Ülvi Abdullayev (dax.: 1210), LOT 2 üzrə Aynur Səmədova (dax.: 6006), LOT 3, LOT 4 üzrə Elşad Bağırov (dax.: 1010), LOT 5 üzrə Nailə Məmmədli (dax.: 9005), hüquqi məsələlər üzrə Kəmalə Rəhimova (dax.: 8023)).

*Tender komissiyası*

# “AtaSığorta” ASC-nin 2018-ci il üçün maliyyə hesabatı

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 648157,72 | 700041,82 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | 0 | 0 |
| **Qeyri-maddi aktivlər** | 416707,54 | 440722,27 |
| **Təxirə salınmış vergi aktivləri** | | 10058,52 |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **1150500** | **10664923,68** |
| dövlət qiymətli kağızları | | 9600800 |
| qeyri-dövlət qiymətli kağızları | 1150500 | 800000 |
| sair maliyyə aktivləri | | 264123,68 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | 400000 | 400000 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **2615365,26** | **12215746,29** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | 2296,2 | 1767,28 |
| **Debitor borcları:** | **3515242,89** | **2166078,61** |
| birbaşa sığorta üzrə | 876650,93 | 1168731,47 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **16398,46** | **9289,18** |
| - təkrarsığortaçı üzrə | 0 | 2524,29 |
| - təkrarsığortalı üzrə | 16398,46 | 6764,89 |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 418537,46 | 112716,94 |
| iddia tələbləri üzrə | 1964097,75 | 699916,84 |
| işçi heyəti üzrə | 106873,52 | 10422,97 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 132684,77 | 165001,21 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **22706704,34** | **13478059,58** |
| kassa | 2337,35 | 1723,55 |
| hesablaşma hesabı | 323405,13 | 222633,71 |
| valyuta hesabı | 40511,86 | 3702,32 |
| depozit hesablar | 22340450 | 13250000 |
| sair pul vəsaitləri | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | | 0 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | 0 |
| sair maliyyə aktivləri | | 0 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **861321,82** | **555864** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 861321,82 | 555864 |
| **Sair qısamüddətli aktivlər:** | **0** | **18** |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | 18 |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | **27085565,25** | **16201787,47** |
| **CƏMİ AKTİVLƏR** | **29700930,51** | **28417533,76** |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 12400000 | 14600000 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | **4061,16** | **3653,43** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0 | 0 |
| digər kapital ehtiyatları | 4061,16 | 3653,43 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **4113148,71** | **-5496763,07** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 955744,97 | -7076578,47 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 3157403,74 | 1579815,4 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **16517209,87** | **9106890,36** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **10673632,34** | **17860089,2** |
| Həyat sığortası sahəsi üzrə : | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 10673632,34 | 17860089,2 |
| **Qarşısıalınma tədbirləri fondu** | 105022,26 | 182240,39 |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | 0 | 0 |
| **Kreditor borcları :** | **0** | **0** |
| əməyin ödənilməsi üzrə | 0 | 0 |
| büdcə üzrə | 0 | 0 |
| sosial sığorta və təminat üzrə | 0 | 0 |
| digər məcburi ödənişlər üzrə | 0 | 0 |
| asılı təşkilatlar üzrə | 0 | 0 |
| sair kreditorlar | 0 | 0 |
| **Sair uzunmüddətli öhdəliklər:** | **1972085,02** | **699916,84** |
| gələcək hesabat dövrünün gəlirləri | 1972085,02 | 699916,84 |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **136309,41** | **32898,74** |
| təkrarsığortaçı üzrə | 117979,28 | |
| təkrarsığortalı üzrə | 18330,13 | 32898,74 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | 294833,72 | 521131,24 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **13181882,75** | **19296276,41** |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **0** | **12799,94** |
| əməyin ödənilməsi üzrə | | 1540,48 |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 0 | 11259,46 |
| **Sair qısamüddətli öhdəliklər:** | **1837,89** | **0** |
| gələcək hesabat dövrünün gəlirləri | 0 | 0 |
| alınmış avanslar | 1837,89 | 0 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | 0 | **1567,05** |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **1837,89** | **14366,99** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **13183720,64** | **19310643,4** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **29700930,51** | **28417533,76** |
| Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

## MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

| Gəlirlər | Məbləğ |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **22601631,86** |
| birbaşa sığorta üzrə sığorta haqları | 22166233,95 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | 293549,22 |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 74489,26 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 67359,43 |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | **-7491914,68** |
